# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir


№ 115 (7283)

4 iyul 2025-ci il.
Qiymәti 60 qәpik


## Erməni qətliamları: azyaşlılara qarşı cinayət əməlləri




8

# Böyük Qayıdış:

## Xankəndi inkişaf və tərəqqi mərkəzinə çevrilir!



2

# İrəvan - Moskva dostluğuna son

## Ermənistan hökuməti Rusiyanın xüsusi missioneri Samvel Karapetyana təzyiqləri artırır



10

## Bəşəriyyətə sığmayanların qərib məzarları



7

## Gəncləşən xəstəlik: demans



15

## Binəqədidə qardaş qardaşı öldürüb...



16

## GEYİMLƏRİMİZ: assimilyasiyanın zirvəsində



14

## Milli medianın qlobal məsələləri



13

# Böyük Qayıdış:

## Xankəndi inkişaf və tərəqqi mərkəzinə çevrilir!

Ermənistanın təcavüzünə məruz qalmış və ərazilərinin 20 faizi 30 illik işğal altında olmuş Azərbaycan 2020-ci ilin noyabrında işğala son qoyduqdan və ərazi bütövlüyünü bərqərar etdikdən sonra işğaldan azad etdiyi ərazilərinin bərpasına başlayıb. Təcavüz nəticəsində bu ərazilərdən didərgin salınmış soydaşlarımızın doğma şəhər və kəndlərinə qaytarılması üzrə Böyük Qayıdış Dövlət Proqramını həyata keçirir. Azərbaycan Hökumət Komissiyasının qiymətləndirməsinə əsasən, hərbi təcavüz və işğal Azərbaycana 150 milyard ABŞ dolları dəyərində zərər vurub. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.




### Prezident İlham Əliyev Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavinini qəbul edib





Azərbaycan Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib. Rəşid Meredov Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmən xalqının Milli Liderinə, Türkmənistan Prezidentinə və qardaş türkmən xalqına çatdırmağı xahiş etdi.

Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Qarabağda aparılan bərpa və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını deyərək, bu bölgənin təbiətinin gözəlliyinə valeh olduğunu bildirdi.

Görüşdə azərbaycanlılarla türkmənlərin ortaq etnik kökləri, tarix və mədəniyyət bağlantılarına malik iki qardaş xalq olduğu bir daha vurğulandı. Ölkələrimiz arasında energetika, nəqliyyat, mədəniyyət, humanitar, elm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı. Xüsusilə Azərbaycanda Türkmənistan Mədəniyyət Günlərinin, Türkmənistanda isə Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsi qeyd olundu.

### Azərbaycan və Özbəkistan prezidentləri Xankəndidəki "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar

Dünən Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar. Fabrikdə müxtəlif növ parçadan 150 çeşiddə kişi, 300 çeşiddə qadın və 150 çeşiddə uşaq geyimləri istehsal olunur. Gələcəkdə kişi köynəklərinin, xüsusi təyinatlı və hərbi geyimlərin istehsalı planlaşdırılır. Hazırda fabrikdə hər gün 2500 ədəd müxtəlif trikotaj məhsulları istehsal edilir ki, bu rəqəmin 10 minə çatdırılması nəzərdə tutulur. Məhsulların 80 faizinin müxtəlif ölkələrə ixracı həyata keçiriləcək. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim keçmiş 250 nəfər hazırda işlə təmin olunub. Ümumilikdə müəssisədə 500 iş yeri yaradılacaq. Fabrikdə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunurlar.

### Xankəndidə Konqres Mərkəzi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndi Konqres Mərkəzinin açılışında iştirak edib. Müasir texniki avadanlıqlarla təchiz olunmuş Konqres Mərkəzi 6500 kvadratmetr sahəni əhatə edir. Burada teatral üslubda 600, ziyafət üslubunda isə 350 nəfərlik tədbir zalları, iclas, konfrans otaqları və digər müxtəlif təyinatlı otaqlar yaradılıb.

Özündə müasirliklə milli memarlıq ənənələrini birləşdirən Mərkəzin binasında müxtəlif konqreslər, konfranslar, seminarlar, işgüzar görüşlər, ölkə və beynəlxalq əhəmiyyətli digər tədbirlərin keçirilməsi üçün geniş imkanlar var.

*Ardı Səh. 3*

# Böyük Qayıdış:

## Xankəndi inkişaf və tərəqqi mərkəzinə çevrilir!



Əvvəli Səh. 2

Konqres Mərkəzinin fəaliyyətinin ilkin mərhələsində 12 nəfər daimi iş yeri ilə təmin olunub. Onlardan 8-i Xankəndi, Xocalı, Kəlbəcər və işğaldan azad olunmuş digər ərazilərin sakinləridir. Yüksək funksionallığı və müasirliyi ilə diqqət çəkən Konqres Mərkəzi işğaldan azad olunmuş ərazilərimizin sosial-iqtisadi potensialının inkişafına xidmət edən mühüm layihələrdən biridir.

Bu Mərkəzin yaradılması bir daha sübut edir ki, işğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi layihələr ardıcıl və sürətlə davam edir.

### Zəfər parkında görülən tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndidə Zəfər parkında görülən tikinti işləri ilə tanış olub. Təməli Prezident İlham Əliyev tərəfindən bu ilin fevralında qoyulan Zəfər parkının salınması istiqamətində işlər sürətlə davam etdirilir. Sahəsi 8,3 hektar olacaq parkın ərazisində işğal dövründə tikinti normaları pozulmaqla inşa edilmiş, eləcə də istismara yararsız bir sıra tikililər sökülüb. Parkın mərkəzində Qələbəmizin rəmzi olan Zəfər Tağının tikintisi də davam edir. Onun hündürlüyü Vətən müharibəsi günlərinin sayına uyğun olaraq 44 metr olacaq. Tağın üst hissəsində ziyarətçilər üçün şəhərə baxış meydançası yaradılır. Parkın mərkəzindəki meydançadan Zəfər Tağına qədər 44 rəmzi pilləkən də nəzərdə tutulub. Bu pilləkənlərdə Vətən müharibəsinin hər günü üzrə azad olunmuş yaşayış məntəqələrinə dair məlumatlar əks etdiriləcək. Abidənin üst hissəsinə - baxış meydançasına yaşlı insanların, uşaqların və fiziki məhdudiyyətli şəxslərin rahat qalxması üçün liftlərin quraşdırılması nəzərdə tutulub. Layihəyə uyğun olaraq parkda geniş yaşıllıq zolaqlarının salınması planlaşdırılır. Parkın ərazisində mövcud olan ağaclar qorunmaqla əlavə 300-dən çox ağac və 9 mindən çox müxtəlif növ dekorativ kollar əkilib.



### Xankəndi-Şuşa kanat yolu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb. Xankəndi-Şuşa kanat yolunun uzunluğu 6 min metrə yaxın olacaq. Kanat yolunun Xankəndidə hündürlüyü 844 metr, Şuşada isə 1317 metr təşkil edəcək. Kanat yolunda hərəkətin müddəti 13 dəqiqəyədək, sürəti isə saniyədə 8 metr nəzərdə tutulur. Qeyd edək ki, bu layihənin icrası ümumilikdə turizmin inkişafına təkan verməklə yanaşı, Xankəndidən Şuşaya və əks istiqamətə insanların rahat gediş-gəlişinin təmin olunmasında mühüm rol oynayacaq.

### XANKƏNDİ DƏMİR YOLU VƏ AVTOVAĞZAL KOMPLEKSİNİN TƏMƏLİ QOYULDU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub. Bərdə-Ağdam dəmir yolu xəttinin davamı olan Ağdam-Xankəndi dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə 34,7 kilometrdir. Ağdam-Xankəndi dəmir yolu xətti, o cümlədən 4 körpü, 5 yolötürücü, 3 piyada keçidi, 2 suötürücü boru üzrə layihələndirmə işləri tamamlanıb. Bu dəmir yolu xətti boyunca 3 stansiyanın - Əsgəran və Xocalı stansiyalarının, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin, mühəndis qurğularının, körpülərin, yolötürücülərin, avtomobil, piyada və kənd təsərrüfatı təyinatlı keçidlərin və digər zəruri infrastrukturun tikintisi nəzərdə tutulur. Layihənin icra müddəti 2025-2026-cı illəri əhatə edəcək.

Artıq Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin layihələndirilməsinə başlanılıb. Kompleksin sahəsi 6,4 hektar təşkil edəcək. Beşmərtəbəli kompleksin ərazisində 2 dəmir yolu platformasının və 12 avtobus dayanacağının inşası nəzərdə tutulub. Kompleksin binası gözləmə zalı, bilet kassaları, tibb məntəqəsi, ana və uşaq otağı, mağazalar, restoranlar, inzibati və toplantı otaqları, uşaq əyləncə mərkəzi, açıq tipli terras və istirahət guşələrindən ibarət olacaq. Kompleksin dəmir yolu bölməsi gündəlik 800-1000 nəfər, avtovağzal isə 1000-1200 nəfər sərnişinə xidmət edəcək.

### Prezident İlham Əliyev "Xankəndi" Biznes Mərkəzinin açılışında iştirak edib

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 3-də "Xankəndi" Mehmanxana Kompleksinə aid olan "Xankəndi" Biznes Mərkəzinin açılışında iştirak edib. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verdi. Diqqətə çatdırıldı ki, dörd mərtəbədən ibarət "Xankəndi" Biznes Mərkəzi ümumilikdə 4500 kvadratmetrdən artıq sahəni əhatə edir. Burada 24 ofis sahəsi, 6 iclas otağı mövcuddur. Bundan əlavə, Mərkəzdə 120 nəfər qonaq üçün nəzərdə tutulan "Zefir Cafe & Terrace" restoranı, həmçinin dəftərxana və mətbəə məhsullarının satışı, kimyəvi təmizləmə və camaşırxana xidmətləri fəaliyyət göstərəcək.

Ardı Səh. 4



Əvvəli Səh. 3

## AZƏRBAYCANIN İQTİSADİ QÜDRƏTİNİN GÖSTƏRİCİSİ

# Böyük Qayıdış:

## Xankəndi inkişaf və tərəqqi mərkəzinə çevrilir!



Azərbaycan nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bütün bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi istiqamətində böyük nailiyyətlər əldə edib. Son illərin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

Təbii ki, avtomobil yolları da hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.



### ZƏFƏR YOLUMUZ

Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. Qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığıryolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.

İşğaldan azad olunan ərazilərimiz özünün yeni inkişaf mərhələsini yaşayır. Qarşıya qoyulan hədəflərə uyğun olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi bu ərazilərin dirçəlməsinə və inkişafına xidmət göstərir.

*Nəzakət ƏLƏDDİNQIZI*



# “Bu təməl üzərində bu gün biz Qırğızıstan-Azərbaycan dostluğunun möhkəm binasını tikmişik”

## Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər



***Dünən Prezident İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər. Xıdırlı kəndi Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşir. 2022-ci ilin oktyabrında kəndin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur.***

Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə 2951 nəfərin köçürülməsi planlaşdırılır. Birinci mərhələdə kənddə 719 fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır.

Bundan başqa, kənddə zəruri müasir sosial infrastruktur, o cümlədən inzibati və xidmət binaları tikilib. Burada çoxfunksiyalı inzibati binanın, klub-icma mərkəzinin, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir.





Prezidentlər İlham Əliyev və Sadır Japarov Xıdırlı kəndi körpələr evi-uşaq bağçasının binasında yaradılan şəraitlə tanış oldular. Kənddə məskunlaşacaq əhali üçün tələbata uyğun inşa olunan körpələr evi-uşaq bağçası 120 yerlikdir. Binada qrup otaqları, musiqi otağı, idman zalları balacaların ixtiyarına veriləcək. Burada uşaqların özlərini rahat və qayğısız hiss etmələri, onların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün zəruri şərait mövcuddur. Uşaq bağçasının ətrafında yaşıllıq zolaqları salınıb, idman və oyun meydançaları, söhbətgahlar yaradılıb. Binanın damında Günəş panelləri quraşdırılıb.

Azərbaycan və Qırğızıstan prezidentləri Xıdırlı kəndindəki klub-icma mərkəzində oldular. Dövlət başçıları burada yaradılan şəraitə baxdılar. Binada 190 yerlik akt zalı, bufet, rəqs məşqləri, dərnək otaqları və digər inzibati otaqlar yaradılıb. Klub-icma mərkəzində Xıdırlı kəndi ilə bağlı müxtəlif sosial və mədəni tədbirlərin, habelə el şənliklərinin və digər mərasimlərin keçirilməsi üçün hərtərəfli şərait var.

Azərbaycanın və Qırğızıstanın dövlət başçıları, həmçinin Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını etdilər.

Əvvəlcə prezidentlər məktəbin həyətində quraşdırılan yurtaya baxdılar. Səyyar yaşayış yeri kimi asanlıqla qurulub-sökülən yurta köçəri həyat tərzi üçün nəzərdə tutulur. Hazırda Mərkəzi Asiyada turizm istiqaməti kimi bir çox türk xalqları yurta turizmini inkişaf etdirirlər.

Sonra dövlət başçıları məktəbdə yaradılan şəraitlə tanış oldular.



Qeyd edək ki, 528 şagird yerlik tam orta məktəbin təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulub. Məktəbin binası 5 blokdan, o cümlədən idman zalı blokundan ibarətdir. Ərazisi 2,7 hektar olan məktəb binasında 21 sinif, 2 məktəbəqədər hazırlıq, 2 informatika, 2 texnologiya, 1 hərbi hazırlıq otaqları, 3 laboratoriya, kitabxana, idman və akt zalları, yeməkxana və digər sahələr yaradılıb. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərə biliklərə yüksək səviyyədə yiyələnmək üçün hərtərəfli şərait yaradır. Məktəbin ərazisində həm şagirdlərə, həm də əhaliyə xidmət göstərəcək açıq zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri inşa edilib. Sonra prezidentlər İlham Əliyev və Sadır Japarov yeni mənzillərə köçən sakinlərlə görüşdülər.

Prezident İlham Əliyev:

-Xıdırlı kəndinin əziz sakinlərini salamlamaq istəyirəm. Qarabağın bərpası və dirçəlişində göstərdiyi köməyə görə sizin adınızdan və bütün keçmiş köçkünlərin adından əziz Qardaşım, Qırğızıstan Prezidenti Sadır Nurqojoyeviç Japarova minnətdarlığımı bildirmək istəyirəm.

Sadır Nurqojoyeviçin təşəbbüsü ilə bu regionun hazırda ən böyük yaşayış məntəqəsi olan Xıdırlı kəndində gözəl məktəb tikilib. Bu gün biz ona baxış keçirdik və rəsmi şəkildə açdıq. Məktəbə Ayköl Manasın adı verilib. Bildiyiniz kimi, ”Manas” qırğız xalqının dastanıdır, qırğızların ruhunu təcəssüm etdirir. Əminəm ki, bu məktəbin və bu kəndin gələcək inkişafı üzrə hər şey bizim qırğız qardaşlarımızla bağlı olacaq. Bu gün Qarabağın, Şərqi Zəngəzurun dirçəldiyi, infrastruktur obyektlərinin, evlərin, ictimai binaların tikildiyi bir vaxtda, ilk növbədə, hər bir layihədə məktəb, uşaq bağçası, körpələr evi, tibb məntəqələri planlaşdırırıq. Bunlarsız normal həyat ola bilməz. Əlbəttə, bizim uğurla reallaşdırdığımız ”Böyük Qayıdış” Proqramını həyata keçirməli olduğumuz bir vaxtda qardaş ölkələrin köməyi xüsusilə dəyərlidir. Bu, qırğız xalqının qəlbindən, ürəyindən gələn köməkdir. Artıq dediyim kimi, bunun təşəbbüskarı Qırğızıstan Prezidenti olub. Bildiyiniz kimi, keçən ilin aprel ayında, - hətta məktəbin içərisində bir fotoşəkil də var, - Sadır Nurqojoyeviçlə bu məktəbin təməlini qoyduq və razılaşdıq ki, hazır olanda birlikdə gələcəyik. Belə alındı ki, Xıdırlı kəndi də hazırdır - gözəl evlər, icma mərkəzi, tibb məntəqəsi və bu cür yaraşıqlı təhsil ocağı. Bu, bir daha ölkələrimizin qardaşlığından, bizim tarixi, etnik, mədəni və mənəvi yaxınlığımızdan xəbər verir. Bu təməl üzərində bu gün biz Qırğızıstan-Azərbaycan dostluğunun möhkəm binasını tikmişik.

Mən dəfələrlə Qırğızıstanda olmuşam. Sadır Nurqojoyeviç dəfələrlə Azərbaycanda olub. Bu, onun Qarabağ bölgəsinə ikinci səfəridir. Bu gün və sabah daha çox birgə tədbirlərimiz olacaq. Bu gün məktəbin açılışını uzun illər işğal altında olan Xıdırlı sakinlərinin - kimisi yataqxanada, kimisi də uşaq bağçası binalarında yaşayan sakinlərin vətənə qayıtmalarının birinci mərhələsinə həsr etdik. Çoxları 2007-ci ilə qədər çadır şəhərciklərində yaşayırdı. Onlar torpaqlarımızın işğal altında olduğu dövrün bütün çətinliklərini yaşayıblar. Amma ruhdan düşmədilər, inanırdılar, bilirdilər ki, biz bu torpaqlara, dədə-baba torpaqlarımıza mütləq qayıdacağıq. Biz qalib kimi, bu torpaqların sahibləri kimi qayıtdıq və buna görə də burada dağıdılan hər şeyi, - nəinki Ağdam şəhərində, bütün Ağdam rayonunda bir dənə də olsun dağıdılmayan tikili qalmayıb, - bu gün yenidən həyata qaytarırıq.

Sizin hamınızı ürəkdən təbrik edirəm.

Sakinlər: Çox sağ olun. Allah Sizdən razı olsun.

Prezident İlham Əliyev: Belə qardaşlıq hədiyyəsinə görə əziz qardaşım Sadır Nurqojoyeviçə minnətdarlığımı bildirir, Qırğızıstan və Azərbaycan xalqlarına sülh, firavanlıq, inkişaf və əmin-amanlıq arzulayıram. Qırğızıstanın kiçik bir parçası artıq həmişə burada, sevimli Ağdam torpağımızda qalacaq. Təbrik edirəm sizi.

Prezident Sadır Japarov: Hörmətli Xıdırlı kəndinin sakinləri.

Hörmətli bacılar və qardaşlar.

Sizə Qırğızıstan xalqının səmimi salamlarını çatdırır və Azərbaycan xalqına dərin ehtiramımı bildirirəm. Biz indicə Azərbaycanın Xıdırlı kəndində Manas adına orta məktəbi açdıq. Əminəm ki, bu tarixi hadisə mənəvi əlaqələrimizi daha da möhkəmləndirəcək. Bizim ümumi dəyərlərimiz var və onları gələcək nəsillərə ötürməyə borcluyuq. Bişkekdəki Heydər Əliyev adına məktəb və Xıdırlı kəndindəki Manas adına bu məktəb xalqlarımızın dostluğunun rəmzidir. Arzu edirəm ki, bu məktəbin şagirdləri həmişə ən uğurlu və ən yaxşı olsunlar. Uğurlar.

Sonra mənzillərin açarlarının təqdimetmə mərasimi keçirildi.

# ECO-nun 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izləyiblər










İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçiriləcək 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izləyiblər. Əvvəlcə Azərbaycan Prezidenti və qonaqlar çay süfrəsi arxasında söhbət etdilər. Sonra Qarabağ atlarının "Zəfər" şousu başladı.

Hərbi orkestrin ifasında milli musiqi nümunələrimiz, "Sərhədçi" rəqs ansamblının rəqsləri və Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində göstərdiyi igidlik və cəsarət nümunələri böyük maraqla qarşılandı. Şou müddətində süvarilərimiz yüksək peşəkarlıq nümayiş etdirdilər. Sonra qonaqlar avtobusla Ağdam şəhərini gəzdilər.

# Rusiya iqtisadiyyatı çökür

**Rusiyanın dövlət inkişaf bankı olan "Vneşekonombank"ın baş iqtisadçısı Andrey Klepaç "Le Monde" nəşrinə müsahibəsində ölkəsinin iqtisadiyyatının durğunluq vəziyyətində olması ilə bağlı fikirlərini bildirib, lakin onun payıza qədər bərpa olunacağını gözlədiyini qeyd edib. Vneşekonombankın baş iqtisadçısı, 1998-1999-cu illərdə Rusiya Mərkəzi Bankında tədqiqatlar üzrə direktor, 2008-2014-cü illərdə isə ölkənin iqtisadi inkişaf nazirinin müavini vəzifələrində çalışmış 66 yaşlı Andrey Klepaç Rusiya maliyyə institutlarının modernləşdirilməsinə, formalaşdırılmasına və inkişafına nail olması ilə məşhurlaşıb. Ekspert izah edir ki, bu gün Rusiya iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi ölkənin ÜDM-nin 8%-dən çoxunu təşkil edən müdafiə sahəsinə çevrilib.**




## Rusiya tənəzzülə girib

Andrey Klepaç: "Mən bunu durğunluq və ya artımın dayanması adlandırmaq istərdim. 2025-ci ilin birinci rübündə bu artım göstərici 2024-cü ilin son rübü ilə müqayisədə 0,5% azalıb. İl ərzində 2024-cü ilin birinci rübü ilə müqayisədə artım 1,4% təşkil edib. İlkin təxminlərimiz ikinci rübdə nə artım, nə də azalma ilə bağlı idi. May və iyun aylarında aprellə müqayisədə azalma cüzi olub. Ancaq bu, tənəzzül deyil. Nəzəri olaraq artım üçüncü rübdə və ya ilin ikinci yarısında bərpa olunacaq... bir sözlə, payızdan. Bu, daha çox kənd təsərrüfatı və hərbi sektorun nəticələrindən asılı olacaq. Ümumilikdə, biz 2025-ci ildə təxminən 1,5% artım gözləyirik. 2026-cı ildə bu rəqəmin 2,3%-dən çox - 2,5% olacağı gözlənilir. İstehlak əlbəttə ki, yavaşladı, lakin böyüməyə davam edir. Birinci rübdə investisiyalar 5% artıb - bu, gözləniləndən də artıqdır və gələcək artıma töhfə verir. Bu tendensiya təkcə dövlət deyil, həm də özəl layihələrə aiddir. Bu yaxşı əlamətdir.

Əlbəttə, nəzərə alsaq ki, müdafiə və milli təhlükəsizlik xərcləri müharibə başlamazdan əvvəl 5%-lə müqayisədə indi ümumi daxili məhsulun 8%-dən çoxunu təşkil edir. Bu, enerji sektoru ilə yanaşı, hazırda iqtisadiyyatımızın əsasını təşkil edir. Xərclərin bu səviyyəsi ABŞ-ın Koreya müharibəsi zamanı çəkdiyi xərclər səviyyəsinə bənzəyir. Biz dəqiq rəqəmləri dərc edə bilmərik, çünki bu rəsmi məlumatlar indi məxfi məlumat kimi təsnif edilir, lakin bir faktdır ki, bu sektor hazırda ildə 10%-dən çox böyüyür. Bununla belə, eyni zamanda mülki sektorlarda da, xeyli az da olsa, artım var: avtomobil, kimya, tikinti, ərzaq istehsalı... Onların inkişafı dövlətin pul siyasətindən çox asılı olacaq. 2026-cı ildə bu sektorlar yenidən iqtisadiyyatın əsas hərəkətverici qüvvələrinə çevrilə bilər. Hazırda çox yüksək faiz dərəcələrinə görə şirkətlər investisiyalar və artım üçün maliyyə tapmaqda çətinlik çəkirlər: investisiyaların 70%-dən çoxu şirkətlərin öz vəsaitləri, 20%-dən çoxu isə dövlət hesabına həyata keçirilir. Bankların 20%-dən yuxarı faizlə verdiyi kreditlərin payı faktiki olaraq azdır. Rublun hazırkı möhkəmlənməsi də problemdir, çünki bu komponent ixrac gəlirlərini daha da azaldır. Bu əlavə mənfi amildir.Sanksiyalar iqtisadi artımı ləngidir. Onlar, ilk növbədə, texnoloji və maliyyə xarakterli çox ciddi maneələri təmsil edir. Rusiya iqtisadiyyatı hələ də idxaldan çox asılı olduğundan, bu tədbirlər texnologiyaların, ehtiyat hissələrin alınmasına mane olur...

Amma son üç ildə bir çox Rusiya şirkətləri yerli istehsal və ya digər ölkələrdən, ilk növbədə Çindən idxal hesabına başqa yollar tapa biliblər. Məsələn, Renault-Nissan tədarükü dayandırıldığı üçün AvtoVAZ avtomobil zavodu altı ay işləməyib. Lakin müəssisənin yenidən təşkili və tapılan yeni təchizatçılar sayəsində fəaliyyətini bərpa etmək, hətta yeni istehsal xətlərini işə salmaq mümkün olub. Qərbin sanksiyaları maneələr yaradır, lakin hasilatı başqa cür təşkil etməklə onların öhdəsindən gəlməyə çalışır Rusiya. Rusiya iqtisadiyyatı buna necə uyğunlaşacağının yollarını axtarır. Rusiya ilə Çin arasında illik ticarət həcmi hazırda 200 milyard dolları ötməklə, əsasən Çindən asılıdır. Rusiya alternativlər tapmağa çalışır. Müxtəlif səbəblərdən Çin də öz növbəsində avropalıların etdiyi kimi Rusiyaya idxalı dayandıra bilər. Keçmişdə ölkələrimiz arasında münasibətlərin tarixində həmişə yüksəliş və enişlər olub. Əlbəttə, bu gün Rusiya çinli tərəfdaşlarına daha çox güvənir, lakin ÇXR rəhbərliyi ilk növbədə ölkənin iqtisadi maraqlarını qoruyur: ABŞ və Avropa ilə ticarət onun üçün Rusiyadan daha vacibdir. Məhz buna görə də ABŞ və Aİ-nin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların fəsadlarından qorxan Çin onları tətbiq etmək məcburiyyətində qalıb: Çin bankları ödənişləri qismən, ixracatçılar isə çatdırılmanı dayandırmalı oldular. Beləliklə, Rusiya Çindən həddindən artıq asılı vəziyyətə düşüb.

**V.VƏLİYEV**

# Bəşəriyyətə sığmayanların qərib məzarları

## İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin qürbətdə qalan məzarlarının ölkəyə gətirilməsinə nə mane olur?





Məşhur el məsəli var, "gəzməyə qürbət ölkə, ölməyə vətən yaxşıdır". Bəli, yeni cəmiyyətlər, yaşayışlar görmək, mədəniyyətlərlə, adət-ənənələrlə tanış olmaq, müəyyən hallarda elmi biliklərini artırmaq üçün xarici ölkələrə getmək, gəzmək olar. Tarixən ulularımız da elm öyrənmək, bilik və savad qazanmaq üçün Bağdada, Hələbə, Dəməşqə, İstanbula və digər uzaq-uzaq şəhərlərə üz tutublar. Elə şəxslərdə olub ki, Allahın buyruğu, taleyin hökmü ilə hansısa missiyanı yerinə yetirmək üçün məmləkətlər dolaşıb şəhərlər, kəndlər gəziblər. Alın yazısı olaraq dünyalarını da doğma məkanda yaxınlarının, əzizlərinin əhatəsində deyil, qürbətdə yad insanların laqeyid baxışları altında dəyişiblər. Neçə-neçə işıqlı ziyalılarımız, şair və yazıçılarımız, siyasi-ictimai xadimlərimiz qürbətdə haqq dünyasına qovuşublar. Onların həyatla vidalşmalarından illər, əsrlər keçsə də hələ də ruhları qürbətdə dolaşır. Hələ də qanı qanımızdan, canı canımızdan olan böyük mütəfəkkirlərin məzarlarını Vətənə gətirmək mümkün olmur. Səbəb nədir? İddia irəli sürülə və qeyd oluna bilər ki, işıqlı ziyalılarımız, mütəfəkkirlərimiz haqq dünyasına xarici ölkələrdə qovuşduğu üçün, o ölkələrin qanunları məzarların başqa yerə köçürülməsinə və ya Azərbaycana təhvil verilməsinə imkan vermir. Bununla bağlı çək - çevirli suallarla məsul şəxslərə müraciət etdikdə, onlar susmağa üstünlük verirlər, bəzi hallar da deyirlər ki, dünyanın hər bir bölgəsində vətənpərvər, öz mədəniyyətinə, adət-ənənəsinə bağlı olan azərbaycanlılar var, onlar qürbətdə uyuyan şair və yazıçılarımızın, elm və mədəniyyət adamlarımızın məzarlarını tez-tez ziyarət edir, məzarları önünə gül dəstələri düzür və ruhlarına dualar oxuyurlar. Lakin bu fikirlər sadəcə təsəllivericidir, insanları sakitləşdirməyə xidmət edir. Unutmaq olmaz ki, məzarları qürbətdə olan Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Nəsrəddin Tusi, Xətib Təbrizi, Mirzə Şəfi Vazeh, Almas İldırım qiymətsiz xəzinədilər. Bu xəzinənin ziyarət məkanı da doğulduqları Azərbaycan dövləti olmalıdır.

Yalnız bu halda onların niskil ruhları şad olar. Nəzərə almaq lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları olmuş Nəriman Nərimanovun, Fətəli Xan Xoyskinin Mirzə Kazım bəyin, Əhməd bəy Ağaoğlunun, Əlimərdan bəy Topçubaşovun, Əhməd bəy Ağayevin, Məhəmməd Əmin Rəsulzadənin, Həsən bəy Ağayevin, Ceyhun Hacıbəyli, Xəlil bəy Xasməmmədovun məzarları Azərbaycanda deyil. "Elin bu başı, o başı olmaz" deyiblər, sonuncuların məzarları elimizin o başı olan qardaş Türkiyədə olsa da, hər halda daha yaxşı olardı ki, onların qəbirləri doğulduqları məkanda olsun.

### Bəşər Əsəd hakimiyyəti İmadəddin Nəsiminin məzarının Azərbaycana köçürülməsi üçün 2 milyard dollar istəyib?

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü-məkanə sığmazam.
...Kimsə gümanü zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilir ki, mən zənnü-gümana sığmazam.
...Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,
Gör bu lətiqifeyi ki, mən dəhrü-zəmanə sığmazam.
...Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyana sığmazam.
Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Bundan uludur ayətim, ayətə, şanə sığmazam.

Hər kəsə tanış olan misralar. Bu misraların müəllifi görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimidir. Şair 1369-cu ildə böyük dahilər, mütəfəkkirlər yetişdirən, qədim elm mərkəzi Şamaxıda doğulub. Uşaqlıq vaxtı yüksək elmi biliklərə yiyələnməsi Seyid İmadəddin Nəsiminin elmli, savadlı olmasına geniş imkanlar yaratmışdır. O, Azərbaycan şeirini, yaradıcılıq mühitini bənzərsiz ifadə vasitələri ilə zənginləşdirmişdir. Əsərləri dünyanın az qala bütün xalqlarının dillərinə tərcümə olunub. Haqqında dünyanın tanınmış ziyalıları tərəfindən əsərlər yazılıb. Yalnız Almaniyada İmadəddin Nəsimiyə həsr olunan 12 tədqiqatçı alim tərəfindən 17 kitab yazılıb. Əsərlər yazılsa da, almaniyalı mütəxəssislər " Araşdırmalar, tədqiqatlar əsasında yazılan əsrlərimiz olsa da Nəsimini dərk edə bilmədik", - deyə qeyd olunub. Bu böyük şairin adı Azərbaycanda əbədiləşdirilib, haqqında şeirlər qoşulub, mahnılar yazılıb, adına küçə və meydanlar, yaşayış məskənləri verilib. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda 2019-cu il "Nəsimi ili" elan edilib.

Bununla yanaşı, dahi şairin Suriyanın Hələb şəhərindəki məzarının Azərbaycana gətirilməsi üçün dövlətin müvafiq addımlar atdığı, lakin hələ ki, buna nail olunmadığı bildirilir.

Məlum faktdır ki, hürufiliyin zəngin elmi-ilahi əsaslarını başqa xalqlara çatdırmaq üçün hazır ki fars-molla rejiminin nəzarət etdiyi tarixi Azərbaycan torpaqlarına, İraqa, Türkiyəyə, Suriyaya səfərlər edib. Səyahətləri zamanı insanlar onu böyük sevgi və məhəbbətlə qarşılasalarda yerli hakimiyyətlər ona qarşı hiddət nümayiş etdiriblər, nüfuzundan narahat olublar. Bu səbəbdən də dəfələrlə Suriyada, İraqda və Osmanlı ərazilərində zindanlara atılıb, azadlığı məhdudlaşdırılıb. 1369-cu ilin yayında Suriyanın Hələb şəhərində böyük meydanda geniş əhali kütləsi önündə şeirləri ilə öz ideyasını təqdim edərkən həbs olunub.

Şairin mühakiməsi zamanı ziddiyyətli hadisələrin baş verdiyi bildirilir. Bədxahlar onu dinsizlikdə ittiham etməyə çalış və onun ölümə məhkum edilməsini istəyirlər. Lakin cahanın böyük şairi kəlmeyi-şəhadətini uca səslə söyləməklə hakim zümrəni mat qoyur. Bu səbəbdən də məhkəmədə qazilər şurasının əksər üzvləri bəşəriyyətə sığmayan şairin ölüm cəzasının verilməsinə qarşı çıxırlar. Lakin o dövrün ən qəddar sultanı olan Misir sultanı Məmlük ibn Müəyyədin fərmanı ilə böyük şair dərisinin soyulması ilə öldürülüb. Hazırda şairin məzarı Suriyanın Hələb şəhərindəki əl-Ferafire məhəlləsində ki, "Nəsimi təkyəsi" adlanan ərazidə dəfn olunub.

Diqqətçəkən məqam ondan ibarətdir ki, 20-ci əsrin 60-ci illərinə qədər İmadəddin Nəsiminin məzarının Surayanın hansı şəhərində olmasına dairə məlumatlara olmayıb. Yalnız 1968-ci ildə xalq şairi Rəsul Rza Suriyaya ezamiyyətə gedərkən Nəsiminin qəbrinin Hələbdə olduğunu aşkar edib. Eyni zamanda, Rəsul Rza İmadəddin Nəsimiyə aid bir sıra əlyazma nüsxələrini tapıb. Hələbdə Nəsiminin qəbrini ziyarət edib qayıdandan sonra Rəsul Rza Bakıda "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi "Cahana sığmayan şairin qərib məzar" adlı məqalə dərc edib.

Bəli, şairin qərib məzarı Hələdbə qalmaqdadır. Yuxarıda qeyd etdiyim kimi, şairin məzarının Azərbaycana gətirilməsi üçün cəhdlər göstərilib. Deyilənlərə görə, Bəşər Əsəd hakimiyyəti dövründə Nəsiminin məzarının Azərbaycana gətirilməsi üçün ilkin razılaşma əldə edilib. Lakin sonradan Bəşər Əsədin məzarın Azərbaycana köçürülməsi üçün 2 milyard ABŞ dolları istəməsi danışıqların birinci mərhələsinin nəticəsiz qalmasına səbəb olub. Yenə də qeyd olunanlar görə, Bəşər Əsəd rejimi şairin məzarının və ətrafını abadlaşdırmağa icazə verməyib. Lakin danışıqlardan və Azərbaycan dövlətinin qətiyyəti sayəsində İmadəddin Nəsimin məzarını və ətrafını abadlaşdırmaq mümkün olub. Hazırda məzarın ətrafında yeni təmir, tikinti işləri aparılır, yəqin ki, Suriyada qurulan yeni demokratik Əş Şara hökuməti Azərbaycanın dünya miqyası dahi şairinin məzarının ölkəmizə verilməsinə razılıq verəcək. Hər halda buna ümidlər çoxdur.

### Məhəmməd Füzuli Şamaxıda doğulub? Əzizə Cəfərzadə haqlıdırmı?

Dünya işinin mədarı yoxdur,
Heç kimsəyə etibarı yoxdur.
Eylər birisini sahibi-tac,
Ol birisin eylər ona möhtac.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yazdığı bu kimi şeirləri bütün dövrlər üçün düşündürücü, maraqlı və aktualdır. Dahi Azərbaycan şairi və filosofu Məhəmməd Süleyman oğlu Füzuli 1494-cü ildə anadan olub. Onun harada doğulması ilə bağlı dəqiq məlumatlar yoxdur. İrəli sürülən məlumatların əksəriyyəti ziddiyyətli və mübahisələrə yol açan məlumatlar. Çünki bir qisim tədqiqatçılar Məhəmməd Füzulinin Bağda şəhərinin yaxınlığında yerləşən Kərbəlada dünyaya gəldiyini qeyd etsələr də, əksəriyyət tədqiqatçılar şairin Azərbaycan ərazində, xüsusi ilə də Şamaxı və Ağcabədidə anadan olduğunu qeyd edirlər. Çünki maraqlı tərəflərin hər biri o fikirdədirlər ki, Məhəmməd Füzuli Azərbaycanda məşhur olan türk mənşəli Bayat tayfasındandır. Tanınmış Azərbaycan yazıçısı Əzizə Cəfərzadə qeyd etmişdir ki, Məhəmməd Füzulinin atası Süleyman Şamaxının Bayat kəndində yaşamış, yaşa dolduqdan sonra ailəsi ilə birlikdə, o cümlədən o zaman 8-9 yaşlarında olan Məhəmməd Füzuli ilə İraqın Ərəş mahalına köçmüşlər. Məhəmməd Füzuli ilk mədrəsə təhsini də Şamaxıda alıb. İraqın Ərəş mahalına köçdüklərindən sonra təhsilini dini ocaqda davam etdirmişdir. Hər zaman Azərbaycana, xalqına bağlılığı ilə seçilib. Şeirlərini, dostlarına ünvanladığı məktublarını Azərbaycan dilində yazıb. Buna misal olaraq onun təmiz Azərbaycan dilində yazdığı bir sıra şeirlərini, o cümlədən "Bəngü Badə" (Tiryək və Şərab), "Söhbətül-əsmar" (Meyvələrin söhbəti), "Leyli və Məcnun", "Hədiqətüs-Süəda" (Xoşbəxtlik bağçası), "Şikayətnamə" və ya "Nişançı Paşaya məktub" və digər poemalarını misal olaraq göstərmək olar.

Məlumat üçün onu da qeyd etmək lazımdır ki, Azərbaycanın tanınmış yazıçısı Əzizə Cəfərzadə Məhəmməd Füzulinin Şamaxının Bayat kəndində anadan olduğuna əmin olub. Bu baxımdan Şamaxı şəhərindən Göylər kəndinə gedən istiqamətdə yolun sağında yerləşən əraziyə "Məhəmməd Füzulu Bayat kəndində doğulub", yazılmış daş baralyef qoydurub. Hazırda daş baralyef öz möhtəşəm görünüşü ilə ətrafdan keçənləri heyran etməkdədir. Gözlənilir ki, Məhəmməd Füzulinin məzarı İraqdan Azərbaycan köçürülərsə, Əzizə Cəfərzadənin ucaltdığı baralyefin yanında yenidən dəfn olunacaq.

Ürək ağrıdan hal ondan ibarətdir ki, Məhəmməd Füzulinin məzarının baxımsız vəziyyətdə olmasına dair məlumatlar səsləndirilir. Bu günlər Kərbəlaya ziyarətə gedən jurnalist həmkarımız Cabir Məmmədov filosof və şair Məhəmməd Füzulinin məzarını da ziyarət edib. Jurnalist bizimlə söhbətində böyük şairinin məzarının dar bir yerdə sıxışdırılmış vəziyyətdə olduğunu söylədi. Qeyd etdi ki, ətrafının baxımsız olması məzarın görnüşünə ciddi əngəllər yaradır. Cabir Məmmədov Məhəmməd Füzulinin Azərbaycan şairi olmasını əks etdirən heç bir lövhənin qoyulmadığını da söylədi: "Təəssüflər olsun dünyamızın ən dəyərli və nüfuzlu şairi olan Füzulinin Azərbaycanla bağlılığına dair heç bir lövhə, yazı yoxdur. Məzarın üzərinə ərəb dillin də bir -iki söz yazılıb. Çox yaxşı olardı ki, Azərbaycanın mədəniyyət nazirliyi bu məsələyə diqqət yetirsin. İraqın müvafiq dövlət orqanları ilə Məhəmməd Füzulinin məzarının abadlaşdırılması və məzarın sinə daşı üzərində Azərbaycan şairi adının latın qrafikası ilə yazılmasına nail olsun. Bu baş versə, biz az da olsa təskinlik tapar və şairində ruhu şad olar".

***İLHAM ƏLİYEV***

ARAŞDIRMA

# Erməni qətliamları:
## azyaşlılara qarşı cinayət əməlləri

### *2 yaşlı Zəhranın faciəsindən ötən səkkiz il*

Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımının acı nəticələrini yaşamışıq. Tarixdə vəhşi əməl kimi təsdiqini tapan olaylar nəticəsində xalqımız misli görünməmiş faciələr yaşamış, bu acı-ağrılar bir ömür boyu insanları tərk etməmişdir. Çəkilən ahlar, nalələr insanların qaysaqlamış yaralarının sağalmasına imkan verməmişdir. Axı bir faciənin ağrı-acısını yaşa-yaşaya daha bir terrora tuş gəlmişik. Tarix təkrarlanıb və ötən illərin səhifələrini vərəqlədikcə nə qədər sayda faciə, qətliam, soyqırımı faktlarını şahidi oluruq. Yaxın və uzaq keçmişimizdə yer alan bu səhifələr ermənilərin mənfur siyasəti və çirkab əməlləri, simaları ətrafında hər şeyi demiş olur. Kimdirlər və hansı məsləkə qulluq edirlər? 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurdu. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş oldu. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. İyirminci yüzillikdəki tarixi yolumuza nəzər salaq görərik ki, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən baş verənlər erməni faşizminin xalqımıza qarşı olan çirkin niyyətlərinin göstəricisidir.








### DASTANA DÖNMÜŞ İNSAN TALELƏRİ

1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi tarixə yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş verdi. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alındı. 117 nəfər əsir alındı, 66-90 nəfər mülki şəxs isə qətlə yetirildi. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir. Tarix təkrarlanıb. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar. Ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçiriblər. Bu faciələr sırasında Kəlbəcər rayonunun ən böyük kəndlərindən biri olan Başlıbeldə törədilən qətliamdır ki, sakinlərdən 9 nəfər yolda qətlə yetirilib, 5 nəfər girov götürülüb. Digər 62 nəfər isə dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışıblar. Amma onlar cəmi 18 gün gizli yaşaya biliblər. Artıq 30 ilə yaxın işğal altında olan torpaqlarımız 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində işğaldan azad olundu. Amma Zəfər sevincimizi yaşaya-yaşaya illərlə ermənilər tərəfindən törədilən terrorların, təcavüzün ağrılarını da yaşayırıq. Dağıdılan şəhər və kəndlərimiz, viran qoyulan abidələrimiz, canın bu torpağa fəda edən şəhidlərimiz, günahsız insanlar Hər bir insanın taleyi dastandır və mücadilə dolu torpaq sevgisindən yoğrulub. Tökülən qanlar bu torpağı suvarıb, ona nəfəs verib.

### ERMƏNİSTANIN MÜHARİBƏ CİNAYƏTLƏRİ

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermirmi? Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verirdi. Bütün olayları dəqiqliklə işıqlandıran KİV-lər Azərbaycanın haqlı mövqeyinə göz yuma bilmirdilər. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Gəncədə yaşanılan matəm məgər erməni təcavüzkarlığının üzü deyildimi? Kim idi bunları törədən? İnsanlarda onların əməllərinə qarşı yaranan qəzəb və nifrət yaddaşlardan silinərmi? Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışacaq. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşayarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu.

### 4 İYUL FÜZULİ RAYONUNUN ALXANLI KƏNDİ

Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, düz yeddi il əvvəl 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.

### 30-DAN ARTIQ UŞAQ ERMƏNİ TERRORUNUN QURBANI OLDU

Qeyd edək ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub. Ermənilərin tarixən kim olduqları dünyaya sübut edilib.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsi Zəfərimizi şərtləndirdi. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Bu zəfəri tariximizə yazan Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur.

***Zümrüd BAYRAMOVA***

# Keçmişdən bu günə:
# Azərbaycan-Özbəkistan dostluğu

***Azərbaycanın xarici siyasətində Özbəkistan ilə əlaqələr mühüm əhəmiyyət kəsb edir. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni soykökə malik olan hər iki xalq arasındakı əlaqələrin tarixi qədim dövrlərə gedib çıxır. Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində hər zaman Azərbaycanı dəstəkləyib. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edib.***

Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlərin tarixi uzaq əsrlərə gedib çıxır. Xalqlarımızı oxşar milli adət-ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirir. Təsadüfi deyil ki, dahi özbək mütəfəkkiri Əlişir Nəvai öz "Xəmsə"sini Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə alıb.

Uzun illər ərzində hər iki dövlət SSRİ-nin müttəfiq respublikaları olublar. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistan torpağında sığınacaq tapıb. Bu gün də on minlərlə azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində



**Elxan QULİYEV**
**Əməkdar müəllim**

fəal iştirak edir. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar yaxından iştirak ediblər.

Bu gün Azərbaycan-Özbəkistan münasibətləri sıx dostluğa, qardaşlığa əsaslanmaqla, yüksək səviyyəsinə çatıb. Bu münasibətləri tarixi bağlar daha da möhkəmləndirir. Azərbaycan-Özbəkistan münasibətləri iki ölkə liderlərinin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində demək olar ki, bütün sahələrdə artan templə inkişaf etməkdədir.

Azərbaycanla Özbəkistan arasında diplomatik əlaqələr 2 oktyabr 1995-ci ildə yaradılıb. 1996-cı ilin ortalarında Azərbaycanın Özbəkistanda, 1998-ci ilin may ayında Özbəkistanın Azərbaycanda səfirlikləri fəaliyyətə başlayıb.

İkitərəfli münasibətlərin inkişafında şübhəsiz ki, dövlət başçılarının səfərləri xüsusi əhəmiyyətə malikdir. Son illər Azərbaycan və Özbəkistan liderlərinin bir sıra qarşılıqlı səfərləri həyata keçirilib. Dövlət başçılarının qarşılıqlı səfərləri, yüksək səviyyəli görüşlər, birgə imzalanan sənədlər və yaradılan institusional mexanizmlər strateji əməkdaşlığın əsas dayaqlarını formalaşdırıb. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iyulun 2-də Bakıya rəsmi səfəri bu baxımdan xüsusi əhəmiyyət daşıyırdı.

Səfər çərçivəsində Azərbaycan və Özbəkistan liderləri - İlham Əliyev və Şavkat Mirziyoyev - Ali Dövlətlərarası Şuranın ikinci iclasının qərarını imzaladılar, müxtəlif sahələri əhatə edən mühüm sənədlərə qol çəkdilər.

Rəsmi tədbirlərdən sonra Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə birgə mətbuata bəyanatla çıxış ediblər. ölkə başçısı bildirib ki, "bu gün Özbəkistan-Azərbaycan münasibətlərinin tarixində əlamətdar gündür. Özbəkistan Prezidentinin dövlət səfəri layiqincə, qardaşlıq və qarşılıqlı anlaşma ab-havasında keçir".

Dövlətimizin başçısı qeyd edib: "Bu gün biz həm ikitərəfli görüş, həm də Dövlətlərarası Şuranın iclası çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinin geniş spektrini müzakirə etdik, münasibətlərimizin



strateji, müttəfiqlik xarakterini bir daha təsdiqlədik. Keçən il Daşkənddə qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Müqavilə imzaladıq. Bu, istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəddir. Biz artıq bir ildir ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirilən plan və layihələrlə nümayiş etdiririk".

İki ölkə arasında əlaqələr 1995-ci il oktyabrın 2-də qurulub. 1996-cı ilin avqustunda Azərbaycanın Daşkənddə, 1998-ci ilin iyulunda isə Özbəkistanın Bakıda səfirlikləri fəaliyyətə başlayıb. Bu diplomatik platformada indiyədək 190-dan çox ikitərəfli sənəd imzalanaraq hüquqi bazanın təməli möhkəmləndirilib. Sənədlər arasında 2022-ci ildə imzalanmış "Strateji tərəfdaşlığın dərinləşdirilməsi" sənədi xüsusilə seçilir. Ən mühüm mərhələlərdən biri isə 2024-cü ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana səfəri çərçivəsində imzalanmış Azərbaycanla müttəfiqlik münasibətləri haqqında müqavilə olmuşdur. Sənəd aprelin 30-da Özbəkistan parlamenti tərəfindən ratifikasiya olunaraq, münasibətlərə hüquqi-müttəfiqlik statusu vermişdir.

Hazırda münasibətlər yalnız dostluq səviyyəsində deyil, həm də hərtərəfli və strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Strateji münasibətlərin ideya əsasları böyük siyasi uzaqgörənliklə hələ sovet dövründə qoyulmuşdur. 1970-ci illərdə Azərbaycanın rəhbəri Heydər Əliyev və Özbəkistanın o zamankı rəhbəri Şərəf Rəşidov arasında şəxsi dostluq və qarşılıqlı hörmət əlaqələri bu gün də dərin hörmətlə yad edilir. Ulu öndər Heydər Əliyev özbək xalqına daim xüsusi rəğbət bəsləmiş, bu münasibət sonradan yüksək səviyyəli dövlətlərarası əlaqələrdə davam etdirilmişdir.

Tariximizin ağrılı səhifələrinə nəzər salsaq görərik ki, 1930-cu illərin repressiya dalğaları zamanı on minlərlə azərbaycanlı Özbəkistana sığınmış və orada yeni həyat qurmuşdur. Bu humanitar təmaslar hər iki xalqın bir-birinə mənəvi bağlılığını daha da gücləndirmişdir. 1966-cı ilin aprelində Daşkənddə baş vermiş dağıdıcı zəlzələ zamanı Azərbaycan xalqı öz humanist ənənəsinə sadiq qalaraq qardaş köməyini əsirgəməmişdir. Zəlzələdən sonra şəhərin yenidən



qurulmasında azərbaycanlı mütəxəssislər, mühəndislər və tikinti işçiləri yaxından iştirak etmişlər. Bu gün Özbəkistanda 70 mindən artıq azərbaycanlı yaşayır və onlar ölkənin sosial, iqtisadi və ictimai həyatında fəal iştirak edirlər.

Hər iki ölkə beynəlxalq hüquqa və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipinə sadiqdir. Özbəkistan, Azərbaycanın Qarabağla bağlı haqlı mövqeyini daim dəstəkləyib. Bu həm siyasi, həm də mənəvi dəstək kimi yüksək dəyərləndirilir. Azərbaycan və Özbəkistan, Mərkəzi Asiya və Cənubi Qafqazda sülhün və sabitliyin qorunması üçün ortaq mövqe nümayiş etdirir.

Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev arasında şəxsi dostluq və qarşılıqlı inam bu münasibətlərin əsas dayaq nöqtəsidir. Liderlər regionda sabitlik və Türk dünyasının birliyi naminə ardıcıl və məqsədyönlü addımlar atırlar. Dövlət başçılarının səyləri nəticəsində Azərbaycan-Özbəkistan əlaqələri regional və beynəlxalq əhəmiyyətli strateji əməkdaşlıq modelinə çevrilmişdir. Hər iki ölkənin xarici siyasət kursu qarşılıqlı suverenliyin tanınması, ərazi bütövlüyünün dəstəklənməsi və daxili işlərə qarışmamaq prinsipləri üzərində qurulub. Bu, xüsusilə Qarabağ Zəfərindən sonra özünü daha qabarıq şəkildə göstərdi. 2020-ci ilin sonunda Şavkat Mirziyoyev Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə dövlət başçımızı ilk təbrik edən liderlərdən oldu. Bundan sonra Özbəkistan tərəfindən Füzuli şəhərində məktəb tikintisi təşəbbüsü irəli sürüldü və 2023-cü il avqustun 23-də bu layihə icra olunaraq istifadəyə verildi. Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb bu gün iki qardaş ölkə arasında sarsılmaz birliyin nümunəsinə çevrilib.

Mətbuata bəyanatında Prezident cənab İlham Əliyev Qarabağın bərpasına göstərdiyi köməyə görə Özbəkistana minnətdarlığını bildirib. Prezident cənab İlham Əliyev bildirib: "Biz Qarabağın bərpasına göstərdiyi köməyə görə xüsusi minnətdarlığımızı bildiririk. Özbəkistan birinci ölkə, öz təşəbbüsü ilə Qarabağ bölgəsinin bərpasına dərhal yardım edən Prezident Mirziyoyev dünyada ilk lider olub. Sosial təhsil infrastrukturunun ilk obyekti isə məhz Özbəkistanın tikdirdiyi bu məktəbdir və mən Şavkat Miromonoviçlə onun açılışını etmişik. O, özbək xalqının böyük oğlu Mirzə Uluqbəyin adını daşıyır və burada öz əcdadlarının torpağına qayıdan uşaqlar təhsil alırlar".

# İrəvan - Moskva dostluğuna son

## Ermənistan hökuməti Rusiyanın xüsusi missioneri Samvel Karapetyana təzyiqləri artırır





Ermənistan parlamenti biabırçı oliqarx Samvel Karapetyana məxsus ”Ermənistan Elektrik Şəbəkələri”nin (EEŞ) milliləşdirilməsinə icazə verən qanun layihəsini birinci oxunuşda qəbul edib. Sənədi 65 deputat dəstəkləyib, 30 deputat əleyhinə çıxıb. Bitərəf qalan olmayıb. Baş nazir Nikol Paşinyan iyulun sonuna kimi EEŞ-a nəzarəti ələ keçirəcəyinə ümid edir. EEŞ Ermənistanın demək olar ki, bütün şəbəkə iqtisadiyyatına sahibdir (36 min km elektrik şəbəkəsi), bütün istehsal şirkətlərindən elektrik enerjisinin yeganə alıcısı və bütün ölkə üzrə abonentlərə elektrik enerjisinin yeganə satıcısıdır. Qanun layihəsinə əsasən, Ermənistanın Dövlət Xidmətlərini Tənzimləmə Komissiyasına şirkətin fəaliyyətində ciddi pozuntular aşkar edilərsə, onun rəhbərliyini dəyişmək imkanı veriləcək. Bundan əvvəl o, araşdırma aparacaq və bu müddət ərzində şirkətin sahibləri onu idarə etməkdən uzaqlaşdırılacaq. Eyni zamanda, müvəqqəti menecerin enerji və ya idarəetmə sektorlarında ən azı beş il təcrübəsi olacaq.

Müxalifət bu təşəbbüsü dövlətin investorlardan əmlak qoparmaq cəhdi, habelə sahibi Karapetyana siyasi təzyiq kimi qiymətləndirib. Xatırladaq ki, iyunun 18-də milyarder dövlət çevrilişinə çağırışda ittiham edilərək 2 ay müddətinə həbs edilib. Buna səbəb Karapetyanın Erməni Apostol Kilsəsini (EAK) Ermənistanın baş naziri Nikol Paşinyanın hücumlarından hər vasitə ilə müdafiə etməyə hazır olduğunu deməsi olub. İndi onu 5 ilə qədər həbs gözləyir. Maraqlıdır ki, iş adamının həbsindən sonra kilsəyə təzyiqlər daha da artıb, o cümlədən hökumət əleyhinə sui-qəsddə iştirakda ittiham olunan iki arxiyepiskop Baqrat və Mikael də həbs edilib. Lakin onlar öz fəaliyyətlərinə ötən ildən başlayıblar və dəfələrlə açıq şəkildə təkcə kilsənin müdafiəsinə deyil, Paşinyanın devrilməsinə çağırıblar. Bundan başqa, Ermənistan hökuməti ÜEK-ın rəhbəri II Qareginin könüllü istefasının alternativinin olmadığını təkid etməkdə davam edir.

Öz növbəsində, Karapetyanın vəkili Aram Vardevanyan hesab edir ki, onun müdafiə etdiyi şəxs EEŞ-in maneəsiz milliləşdirilməsini təmin etmək üçün həbs edilib. ”Deyə bilərəm ki, heç bir tədbir görülmür, sadəcə olaraq EEŞ-in işlərinə qarışmaq üçün Samvel Karapetyanın həbsi lazım idi. Deyə bilərəm ki, mənim açıqlamalarım Ermənistan hökumətinin başçısının iyunun 17-də verdiyi birbaşa vədə əsaslanır. Mən belə bəyanatlar verə bilərəm? Məncə, bacara bilərəm”, - o deyib.

Yada salaq ki, Paşinyan, əksinə, Karapetyanın EEŞ-in milliləşdirilməsindən xəbəri olduğu və ictimaiyyətin diqqətini özünə cəlb etmək istədiyi üçün kilsə üstündə hakimiyyətlə münaqişəyə girdiyini iddia edir. Baş nazirin sözlərinə görə, milyarder hakim elita ilə cəmiyyətdə narazılıq səpmək üçün respublikanın enerji infrastrukturunu kritik vəziyyətə salıb. Karapetyanın ”Taşir” Şirkətlər Qrupu iyulun 4-də İrəvanda milyarderə dəstək yürüşünün keçiriləcəyini açıqlayıb. Ermənistanın baş naziri cavab olaraq bildirib ki, onun məlumatına görə, EEŞ əməkdaşları bu aksiyada iştirakdan imtina etsələr, işdən çıxarılmaqla hədələnirlər. ”İşdən çıxan, siyasi intriqalarla məşğul olan EEŞ əməkdaşları iyulda vəzifədən azad olunacaqlar. EEŞ əməkdaşlarını işdən çıxarmaqla yanaşı, aksiyalarda iştiraka məcbur edənlər də mühakimə olunacaqlar. Yuxarıda qeyd olunan iki qrupa müqavimət göstərən və xidməti vəzifələrini yerinə yetirməkdə davam edən EEŞ əməkdaşlarının heç bir problemi olmayacaq. İyulda işdən çıxarılan iki və birinci qrup işdən çıxarılan EEŞ əməkdaşlarının işindən azad olunacaqlar və ödənilməmiş əmək haqqı veriləcək”, - Paşinyan bildirib.

Eyni zamanda, Ermənistan İstintaq Komitəsi (İK) ”Taşir”in ofisində axtarış aparıb. İdarədən bildirilib ki, əməliyyat tədbirləri dövlət çevrilişinə çağırışla bağlı deyil. İqtidaryönlü KİV-lər bildiriblər ki, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin xüsusilə külli miqdarda yuyulması və xüsusilə külli miqdarda vergi, rüsum və ya digər ödənişlərin ödənilməməsi maddələri ilə açılmış cinayət işi üzrə ibtidai istintaq aparılır. ”Görünür, EEŞ hər şeydən sonra milliləşdiriləcək. Hakimiyyətin bu cür hərəkətlərinin sürəti onu göstərir ki, Paşinyan hökuməti buna çoxdan hazırlaşır. Ola bilsin ki, şirkət bir müddət dövlətə məxsus olacaq, sonra isə özəlləşdiriləcək. Ehtimal etmək olar ki, növbəti sahibi Paşinyan da adlandırılan Xaçatur Sukiasyan olacaq”. Bu barədə Qafqaz İnstitutundan bildiriblər.

İnvestisiya mühitinə gəlincə, burada ekspert nöqteyi-nəzərindən vəziyyət qeyri-müəyyən görünür. Xüsusən də çoxları baş verənləri rusiyalı investora qarşı əməliyyat kimi qiymətləndirir, ona görə də Qərb bizneslərinin narahat olmağa əsası yoxdur. ”Çətin ki, biz EEŞ-in milliləşdirilməsinin ölkədəki investisiya mühitinə hər hansı ciddi təsir göstərəcəyik, lakin biz razılaşa bilərik ki, yaxşılaşmayacaq”, - Mikaelyan hesab edir.

Ardı Səh. 11



## “Ay Ay Ay”- ah, ah, ah...

MƏTANƏT

**Allah sənə rəhmət etsin, Molla Nəsrəddin. Haqq dünyasına qovuşub səndən sonra nələrin olduğundan xəbərsiz rahatca torpağında uyuyursan. Amma kaş ki, bir yolun buralara düşərdi, olanları, baş verənləri görərdin, nəzər salardın, qiymətini verib gedərdin. Görərdin ki, sən qoyub getdiyin yerlər deyil ta buralar. Nələr-nələr dəyişib, nə yeniliklər baş verib. Qısası, sən nə tövsiyə, öyüd-nəsihət etmişdinsə, gəlsən, onun tam əksini görərsən.**

Dünən qarşıma bir mahnı çıxdı. Təptəzədir, hələ necə dəyərlər, gülü burnunda. Qulaq asdım, dedim görüm bu mahnıda nə deyilir, bu klipdə söhbət nədən gedir?

Baxdım, əslində sonadək baxdım, lakin ona görə baxdım ki, bəlkə bir şey anlayaram. Bəlkə yaradıcı heyətin nə demək istədiyini başa düşərəm. Bir də baxdım mahnı bitdi, lakin hələ mən bir məna anlamamışam. Təəssüf...

Mahnının musiqisini kim bəstələyib, bilmirəm, çünki ta bununla maraqlanmağa vaxt sərf etmədim. Sözlərini də eləcə, kimin yazdığını axtaracaq vaxtım yoxdur. Dedim mahnının sözlərinə bir nəzər salasınız, mən bir məna anlamadım, bəlkə sizlər anlayıb məni də başa salarsınız.

Dünya mənə aşiq, mən də sənə aşiq,
Milyonlar içində oldum sənə aşiq.
Dünya mənə aşiq, mən də sənə aşiq,
Mən onlar içində oldum sənə aşiq.
Yavaş-yavaş uçur gedir ağlım,
Sən olmusan mənim ürək ağrım.
Ay, ay, ay, heyif məndən
Aldım zərbələr səndən.
Yavaş-yavaş uçur gedir ağlım
Sən olmusan mənim ürək ağrım.
Ay, ay, ay, heyif səndən,
Alacaqsan zərbələr məndən.
Unutdum özümü, bir sənin üçün,
Bu sevgi yolunda sənsən mənim üçün,
Susdurmusan artıq bu dəli qəlbi,
Bu bəxtdir, ömürdür tək sənin üçün.
Yavaş-yavaş uçur gedir ağlım,
Sən olmusan mənim ürək ağrım.
Ay, ay, ay, heyif məndən,
Aldım zərbələr səndən.
Yavaş-yavaş uçur gedir ağlım,
Sən olmusan mənim ürək ağrım.
Ay, ay, ay, heyif səndən,
Alacaqsan zərbələr məndən.

Hə, bu qədər. Maraqlananlar bir klipə hökmən baxsın. Bir məna əxz etsələr, məni qınasınlar. Etməsələr, bu klipi ərsəyə gətirənləri qınasınlar.

Mənə bu ”Ay Ay Ay” ”Ah, ah, ah” təsiri fonunda heyif səndən, Azərbaycan musiqisi, heyif səndən, Azərbaycan şairi, bəstəkarı, heyif səndən, Azərbaycanın yaradıcı insanları təəssüfündən başqa bir hiss yaşatmadı.

# İrəvan - Moskva dostluğuna son

## Ermənistan hökuməti Rusiyanın xüsusi missioneri Samvel Karapetyana təzyiqləri artırır

Əvvəli Səh. 10

### İrəvan Moskva ilə əlaqəni kəsdi

Ermənistan hakimiyyəti Rusiya telekanallarının yayımını dayandırmaq imkanını nəzərdən keçirir. Bunu Rusiya televiziyasını ölkənin daxili işlərinə qarışmaqda ittiham edən parlamentin sədri Alen Simonyan deyib. Bundan əvvəl Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri Ararat Mirzoyan Rusiya mətbuatının və rəsmilərinin bəyanatlarını "suverenlik və demokratiyaya qəsd" kimi qiymətləndirib. Rusiya mediasına yeni hücum onların kilsə ilə hakimiyyət arasındakı münaqişəni, həmçinin rusiyalı biznesmen, "Taşir" Şirkətlər Qrupunun prezidenti Samvel Karapetyanın işini işıqlandırmaları ilə bağlıdır.

Ermənistan parlamentinin sədri Alen Simonyan İrəvanda jurnalistlərlə söhbəti zamanı Rusiya telekanallarının Ermənistanda baş verən son hadisələri işıqlandırmasını şərh edərkən respublikada Rusiya KİV-lərinin yayımına qarşı yeni kampaniyaya başlayıb. "Hesab edirəm ki, biz çox ciddi şəkildə Ermənistanda Rusiya telekanallarının yayımının dayandırılması məsələsinin müzakirəsinə başlamalıyıq. Bu, Ermənistan-Rusiya münasibətlərinə ziyan vurur", - Alen Simonyan bildirib. "Əgər dövlət telekanalları Ermənistanın daxili işlərinə qarışmağa icazə verirlərsə, o zaman biz də reaksiya verməliyik və heç olmasa onların cəmiyyətimizin mənzillərinə girişini bağlamalıyıq", - o əlavə edib.



Bundan əvvəl İrəvan Moskvaya nota






göndərərək, bir sıra Rusiya dövlət rəsmilərinin İrəvanda həbs edilən erməni əsilli rusiyalı iş adamı, "Taşir" Şirkətlər Qrupunun prezidenti Samvel Karapetyanın işi ilə bağlı açıqlamalarını ölkənin daxili işlərinə müdaxilə kimi qiymətləndirib. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın iyunun 16-da parlamentdəki çıxışında bildirdiyi kimi, ölkədə baş verən son hadisələrlə bağlı rusiyalı siyasətçilərin, qanunvericilərin və KİV-lərin qiymətləndirmələri təkcə Ermənistanla Rusiya arasındakı ənənəvi dostluğa deyil, həm də "bu dostluğu tənzimləyən hüquqi sənədlərə" ziddir. O, bunu "Ermənistanın daxili işlərinə birbaşa və açıq müdaxilə, suverenliyimizə və demokratiyamıza qəsd" adlandırıb. Alen Simonyanın respublikanın informasiya məkanında rus kanallarının mövcudluğunu dayandırmaq çağırışından əvvəl Rusiyaya, onun siyasətçilərinə və media orqanlarına qarşı digər hücumlar da olub ki, həmin Ararat Mirzoyan Avropa diplomatiyasının rəhbəri Kaja Kallas ilə birgə mətbuat konfransında bunu edib. Onun İrəvana səfəri iyunun 29-30-da baş tutub. Ararat Mirzoyan rusiyalı həmkarı Sergey Lavrovla xanım Kallasın iştirakı ilə qiyabi mübahisəyə girməyi zəruri hesab edib.

"Səhv etmirəmsə, cənab Lavrov "hakimiyyətin kilsəyə qarşı mübarizəsi" ifadəsini işlətdi. Amma Ermənistanda hakimiyyətin Erməni Apostol Kilsəsinə qarşı mübarizəsi




yoxdur, yəqin ki, cənab Lavrovun nəzərdə tutduğu şey bəzi kilsə xadimlərinin Ermənistandakı siyasi proseslərdə iştirakı və müdaxiləsi ilə bağlıdır və hüquq-mühafizə orqanlarının versiyasına görə, söhbət qanunsuz şəkildə iştirak etmək cəhdindən və dövlət çevrilişinə cəhddən gedir. Lavrov rəsmi İrəvanın anti-dövlət fəaliyyətində iştirak etdiyini hesab etdiyi qüvvələrə dəstək verir. Cənab Lavrovun Ermənistanın daxili işlərinə və daxili siyasətinə qarışmaması daha yaxşı olardı. Mən fürsətdən istifadə edərək, Lavrovun parlamentdəki həmkarlarına, mediadakı həmkarlarına müraciət etmək istərdim. Rusiya rəsmiləri, media xadimləri Ermənistanın daxili işlərinə qarışmağa imkan verməməlidirlər", - deyə Ermənistan naziri qeyd edib. Bu arada Ermənistandakı son hadisələri şərh edən Sergey Lavrovun açıqlamalarında Ararat Mirzoyanın ona aid etdiyi "hakimiyyətin kilsəyə qarşı mübarizəsi" ifadəsi heç vaxt eşidilməyib.

Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrovun iyunun 30-da Çolpon-Atada (Qırğızıstan) Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclasından sonra verdiyi bəyanatda İrəvana qarşı hər hansı hücumun olmadığı barədə onun təmsil etdiyi ölkənin KİV-ində fikirlər səsləndirilir. "Mövzu müzakirə olundu, Ermənistan Respublikasının daxilində baş verənlərlə bağlı ciddi narahatlıq ifadə edildi. Aydındır ki, bu, qonşularımız üçün daxili məsələdir, lakin təbii ki, kanonik, min illik Erməni Apostol Kilsəsinə edilən hücumlar ən böyük narahatlıq doğurur. Kilsə ənənəvi olaraq həmişə erməni cəmiyyətinin əsas sütunlarından biri olub və biz bu hücuma çox məruz qalmazdıq. Bunun ciddi əsasları var", - Sergey Lavrov bildirib. "Biz bu münaqişənin, bu vəziyyətin Ermənistan Konstitusiyası əsasında, dindarların hüquqlarına və əslində hər hansı digər insan hüquqlarına tam hörmət əsasında mümkün qədər tez həll olunmasında maraqlıyıq", - deyə rusiyalı nazir əlavə edib.

Samvel Karapetyanın açıq şəkildə dəstəklədiyi İrəvan hakimiyyəti ilə Erməni Apostol Kilsəsi arasında qarşıdurmanın 2026-cı il parlament seçkiləri ərəfəsində seçki kampaniyasının əsas məsələlərindən birinə çevrilmək üçün hər cür şansın olduğunu nəzərə alan Ermənistan hakimiyyəti respublikanın informasiya məkanını Moskvadan alternativ mövqedən yayıma bağlamaq əzmində olduğunu nümayiş etdirir. "Mən buna dözməyəcəyəm. Heç kim Ermənistanı təhdid edə bilməz. Karapetyanın öz üsulları ilə qarışacaqları ilə bağlı bəyanatı ən konkret qiyməti aldı. Bu cür danışanlar dövlətin dadını ağızlarında hiss edəcəklər. Ermənistan Respublikası istənilən bu cür cəhdlərin qarşısını alacaq", - baş nazir Paşinyan bildirib. O, həmçinin Samvel Karapetyana məxsus Ermənistanın Elektrik Şəbəkələri şirkətinin milliləşdiriləcəyini vəd edib.

Bu fonda iyulun 2-də Ermənistan parlamenti Ermənistanın Elektrik Şəbəkələrinin milliləşdirilməsinə icazə verən qanun layihəsini birinci oxunuşda qəbul edib. Qanunverici orqanın iclası yerli telekanallar tərəfindən canlı yayımlanıb. "Qanun layihəsinin lehinə 65 deputat, əleyhinə 30 deputat səs verib, qərar qəbul edilib", - deyə spiker Simonyan bildirib. Həmin gün Ermənistan İstintaq Komitəsinin əməkdaşları "Taşir" Şirkətlər Qrupunun İrəvandakı ofisində axtarışlar aparıblar.

Axtarışlardan az əvvəl Taşir birinci vitse-prezidenti Narek Karapetyan iyulun 4-də İrəvanda "ölkədə baş verən ədalətsizlik və qanunsuzluğa" etiraz olaraq yürüş keçirməyə çağırıb. Buna cavab olaraq Nikol Paşinyan xəbərdarlıq edib ki, "Tashir Group"a məxsus "Ermənistan Elektrik Şəbəkələri"nin iş yerlərini tərk edərək "siyasi intriqalara" cəlb edilmiş və ya başqalarını hökumət əleyhinə mitinqlərdə iştiraka sövq edən əməkdaşları iyul ayında işdən çıxarılacaqlar.

**V.VƏLİYEV**

# Mina terrorunun memarı - Ermənistan

## Ermənilər 30 illik işğal dövründə Azərbaycanın 12 faizdən artıq ərazisini minalarla çirkləndirib














Bu gün ölkəmizin üzləşdiyi ən aktual problemlərdən biri minaların və partlamamış hərbi sursatların (PHS) geniş yayılmasıdır. Keçmiş münaqişələrin, xüsusən də Qarabağ müharibəsinin bu qalıqları mülki əhalinin həyatı üçün ciddi təhlükə yaratmaqda davam edir, iqtisadi inkişafa mane olur və bərpa işlərini çətinləşdirir. Ermənilər 30 illik işğal dövründə ərazilərimizi dünyada analoqu olmayan sistemlə minalayıblar. Azərbaycanın 12 faizdən artıq ərazisi minalarla çirkləndirilib. Otuz ilə yaxın işğalçılıq dövründə bu əraziləri minalamış ermənilər beynəlxalq konvensiyalara zidd olaraq xəritələri Azərbaycan tərəfinə təqdim etmirlər. Yalnız müəyyən ərazilərin mina xəritəsi əsirlərin qarşılığında verilib ki, bunun da 75 faizi yanlışdır. Qarabağ ərazisinin relyefi və minaların çoxluğu nəzərə alınsa, demək olar ki, ümumilikdə minaların təmizlənməsi uzun illər ərzində mümkün ola bilər. Azad edilmiş ərazilərimizdə minalanma səviyyəsi heyrətamiz dərəcədə yüksəkdir. Laçın, Kəlbəcər, Füzuli, Ağdam və digər rayonlarımızda vəziyyət daha acınacaqlıdır. Təkcə Ağdam şəhərində 97 min mina basdırılıb. Azərbaycan tərəfi dəfələrlə beynəlxalq təşkilatlara məlumat versə də Ermənistan tərəfi bu gün müxtəlif bəhanələrlə minalanmış sahələrin tam xəritəsini təqdim etməkdən boyun qaçırır.

Azərbaycanda minaların insan həyatına vurduğu zərər danılmazdır. Yüzlərlə mülki şəxs bu məkrli cihazların qurbanı olmaqla, ölüm, yaxud amputasiya kimi həyati xəsarətlər alır. Bu günlərdə Ağdam rayonunun Papravənd kəndi ərazisində Ağdam Rayon Polis Şöbəsində polis serjantı kimi çalışan Xəyyam İsmayılov piyada əleyhinə minaya düşüb. Məlumata görə, onun sağ ayağı topuqdan amputasiya edilib. Qeyd edək ki, 2020-ci il Vətən müharibəsinin bitməsindən sonra Azərbaycanda mina qurbanlarının ümumi sayı 399 nəfərə çatıb. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi "X" hesabında paylaşım edilib. "Ermənistanın mina ilə çirklənmiş ərazilərin tam və dəqiq xəritələrini təqdim etməkdən davamlı şəkildə imtina etməsi bu ərazilərdə yaşayan mülki şəxslər və digər insanlar üçün ciddi təhlükə yaradır. Beynəlxalq ictimaiyyət bu humanitar hüquq pozuntuları qarşısında səssiz qalmamalıdır", - deyə paylaşımda qeyd edilib.

Minalar təkcə insan həyatı deyil, təbiət üçün də uzunmüddətli təhdid yaradır. Azad olunmuş torpaqlarımızda minlərlə hektar ərazidə basdırılan minalar əkin yerlərini zəhərləyir, bitki örtüyünü məhv edir. Bundan əlavə, minalar su resurslarına da ciddi zərər vurur. Torpağın kimyəvi tərkibini dəyişdirən partlayışlar zamanı zəhərli maddələr yeraltı su mənbələrinə sızaraq ətraf mühitin çirklənməsinə səbəb olur. Bu da həm insanların, həm də heyvanların sağlamlığına mənfi təsir göstərir. Minaların təmizlənməsi ekosistemin bərpasında əsas şərtdir.

Minalar Azərbaycanda iqtisadi inkişafa da əngəllər yaradır. Həmin ərazilərdə kənd təsərrüfatı fəaliyyəti ciddi şəkildə məhdudlaşdırılıb. Geniş münbit torpaq sahələri əlçatmaz olaraq qalır. Yolların, məktəblərin və səhiyyə müəssisələrinin tikintisi də daxil olmaqla infrastrukturun inkişafı da ləngiyir, bu da münaqişədən sonra yenidənqurma və inkişaf səylərinin tempini aşağı salır. Vəziyyətin ağırlığını dərk edən Azərbaycan hökuməti beynəlxalq təşkilatlarla birlikdə minatəmizləmə əməliyyatlarında fəal iştirak edir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) çirklənmiş ərazilərin təmizlənməsi və minaların təhlükələri barədə məlumatlılığın artırılması istiqamətində yorulmadan fəaliyyət göstərir. Bu səylərə baxmayaraq, çirklənmənin miqyası genişdir və minalardan təmizləmə həm gərgin zəhmət tələb edir, həm də təhlükəli prosesdir. Qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planına əsasən, 2022-2025-ci illər ərzində 215 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub. Plana uyğun olaraq 3 il ərzində 159 min hektardan artıq ərazi (73,95 faizdən artıq) minalardan təmizlənib. Hazırda minatəmizləmə əməliyyatları intensiv şəkildə davam etdirilir. İşğaldan azad olunan ərazilərdə ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti və 4 özəl şirkətin birgə əməyi nəticəsində mart ayı ərzində 4556 hektar ərazi minalardan təmizlənib. 105 tank əleyhinə mina, 331 piyada əleyhinə mina, 9755 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.

Sülh və təhlükəsizlikdən, haqq və ədalətdən dəm vuran bütün beynəlxalq təşkilatlar, eləcə də sayılıb-seçilən dövlətlər 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 6-cı bəndini kobudcasına pozaraq Azərbaycan ərazisində hərbi fəaliyyəti, minaların daşınmasını və yerləşdirməsini davam etdirən Ermənistanın mina terrorunun qarşısının alınması üçün riyakar Hayastan hökumətinə ciddi təzyiqlər göstərməli, minalanmış ərazilərin təmizlənməsi ilə bağlı ölkəmizə dəstək verməlidirlər. Daim ikili standartlar siyasəti yürüdən təşkilatlar regionda uzunmüddətli sülhdə maraqlıdırlarsa o zaman Ermənistanın hərbi-siyasi rəhbərliyinə təzyiq göstərərək həqiqi mina xəritələrinin Azərbaycana təhvil verilməsində israr etməlidirlər. Hər kəs anlamalıdır ki, ermənilər öz öhdəliklərini yerinə yetirib müharibə cinayətlərindən əl çəkməyənə qədər regionda uzunmüddətli sülhdən söhbət gedə bilməz.

***Sevinc Azadi***

# "Azərbaycan jurnalistikası bu gün özünün ən şərəfli dövrlərindən birini yaşayır"



"Bu il Azərbaycan milli mətbuatının 150 illik yubileyi qeyd olunacaq və bununla bağlı cənab Prezident İlham Əliyev tərəfindən 25 aprel 2025-ci il tarixində imzalanmış sərəncam mövcuddur. Həmin sənəddə Azərbaycan mətbuatının keçdiyi şərəfli yol, onun tarixi və bu günkü durumu aydın və dərin məzmunla əks etdirilmişdir. Bu sərəncam, həm də dövlət səviyyəsində Azərbaycan mətbuatına verilən yüksək qiymətin göstəricisidir. Azərbaycan jurnalistləri, 150 illik fəaliyyəti ərzində hər zaman dövlətə, dövlətçiliyə sadiq olmuş, milli maraqların qorunması istiqamətində prinsipial mövqe nümayiş etdirmişlər". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, Azxeber.com informasiya portalının baş redaktoru Hacıbəy Heydərli deyib.Onun sözlərinə görə, bu gün Azərbaycan mətbuatından danışarkən, xüsusilə 44 günlük Vətən müharibəsi və ondan sonrakı antiterror əməliyyatlarını xatırlamamaq mümkün deyil: "Məhz həmin dövr Azərbaycan jurnalistlərinin və ümumilikdə mətbuatının ən ağır, lakin bir o qədər də şərəfli sınağı oldu. Həmin günlərdə Azərbaycan jurnalistikası üzərinə düşən tarixi vəzifəni ləyaqətlə yerinə yetirdi. Düzgün, operativ, milli maraqlara uyğun və obyektiv informasiya təqdim olunması ilə jurnalistlər həm informasiya cəbhəsində böyük uğurlar qazandılar, həm də beynəlxalq mediada Azərbaycanın haqq səsinin çatdırılmasında önəmli rol oynadılar.Bununla yanaşı, postmüharibə dövründə də Azərbaycan mətbuatı inkişaf mərhələsinə qədəm qoydu. Medianın İnkişafı Agentliyinin yaradılması, media haqqında qanunun qəbul edilməsi ilə ölkəmizdə jurnalistika sahəsində hüquqi və institusional çərçivə daha da möhkəmləndirildi.

Bu islahatlar nəticəsində "kimdir jurnalist?" sualına dəqiq və hüquqi cavab verildi. Peşəkar jurnalistika ilə qeyri-peşəkar fəaliyyət arasında sərhədlər müəyyənləşdirildi və media sahəsində keyfiyyət göstəricilərinə əsaslanan yeni dövr başlandı.Cənab Prezidentin 25 aprel 2025-ci il tarixli sərəncamında həm də Azərbaycan milli mətbuatından gözləntilər açıq şəkildə qeyd olunmuşdur. Bu gün biz süni intellekt dövründə yaşayırıq və bu reallıq jurnalistlərin fəaliyyətində də yeni çağırışlar yaradır. Məlumatların sürətli yayımı, real faktların saxta xəbərlərdən ayrılması, süni intellektin yaratdığı kontentlərin təhlili və düzgün istifadəsi məsələləri jurnalistlərin diqqət mərkəzində olmalıdır. Azərbaycan oxucusuna dəqiq, həqiqi və düzgün məlumatın çatdırılması, jurnalistlərin cəmiyyətə xidmət funksiyasını yerinə yetirməsi baxımından olduqca vacibdir.

Bütün bu çərçivədə, əminliklə demək olar ki, Azərbaycan jurnalistikası bu gün özünün ən şərəfli dövrlərindən birini yaşayır. Həm informasiya müstəvisində, həm də ictimai nüfuz baxımından müsbət inkişaf müşahidə olunur. Beləliklə, 150 illik zəngin və şərəfli tarixi olan Azərbaycan milli mətbuatı bu gün də yenilənən formatda, müasir texnologiyaların imkanlarından istifadə etməklə, informasiya cəmiyyətində öz layiqli yerini qoruyub saxlayır və gələcəyə inamla addımlayır".

*Günel Rəşadqızı*

# Boğulma hallarının qarşısını necə almaq olar?



## EKSPERT AÇIQLADI

"Çimərliyə gedərkən ilk növbədə təhlükəsizlik məsələsi ön planda olmalıdır. Əvvəlcə düzgün və rəsmi şəkildə fəaliyyətinə icazə verilmiş çimərlikləri seçmək vacibdir. Yalnız fəaliyyətinə icazə verilmiş çimərliklərdə dənizə girmək tövsiyə olunur". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsizlik üzrə ekspert Elmar Nuraliyev deyib.

Onun sözlərinə görə, bu çimərliklər mövsüm başlamazdan əvvəl aidiyyəti qurumlar tərəfindən müvafiq yoxlamalardan keçirilir: "Su nümunələrinin fiziki, kimyəvi, bioloji və bakterioloji göstəriciləri araşdırılır. Əgər insanların sağlamlığı üçün təhlükə riski yaranarsa, bu barədə tədbir görülür. Eyni zamanda sualtı ərazi - akvatoriya da dərinlik baxımından öyrənilir, təhlükəli yarğanlar, axınlar və digər risk faktorları nəzərdən keçirilir. Yalnız bu yoxlamalardan sonra həmin ərazidə çimərlik fəaliyyətinə icazə verilir. Əksinə, fəaliyyətinə icazə verilməyən çimərliklərdə bu cür nəzarət və yoxlamalar aparılmadığı üçün orada insanların həyat və sağlamlığı üçün təhlükə riski daha yüksəkdir. Buna görə də hər kəsin mütləq şəkildə yalnız rəsmi olaraq təsdiqlənmiş və icazə verilmiş çimərliklərdən istifadə etməsi tövsiyə olunur. Bundan əlavə, nəzərə almaq lazımdır ki, fəaliyyətinə rəsmi icazə verilmiş çimərliklərdə xilasetmə xidməti mövcuddur və bu ərazilər mütəmadi olaraq nəzarətdə saxlanılır".

Ekspert bildirib ki, bu fakt bir daha göstərir ki, yalnız rəsmi icazəli və xilasetmə xidməti olan çimərliklərdə dincəlmək təhlükəsizlik baxımından son dərəcə önəmlidir: "Üstəlik, rəsmi statistikaya əsasən, nəzarət olunan çimərliklərdə - həm ötən il, həm də əvvəlki illərdə - bir nəfər belə boğulma hadisəsi qeydə alınmamışdır. Bu rəqəmlər və faktlar onu deməyə əsas verir ki, insanlar mütləq şəkildə yalnız fəaliyyətinə icazə verilmiş və xilasetmə xidməti olan çimərliklərə üz tutmalıdırlar. Digər mühüm məsələ çimərlikdə ümumi davranış və təhlükəsizlik qaydalarına ciddi riayət olunmasıdır. Çimərlik ərazisində yerləşdirilmiş məhdudlaşdırıcı və xəbərdaredici nişanların tələblərinə əməl etmək vacibdir. Müəyyən olunmuş sərhəddən kənarda, xüsusilə daha dərin məsafələrdə üzmək, çimərlik ərazisini yarış meydançasına çevirmək yolverilməzdir. Spirtli içki qəbul edərək suya girmək və ya qaranlıq saatlarda dənizə daxil olmaq təhlükəlidir və qəti şəkildə qadağandır.

Bundan əlavə, özü ilə yüksək həcmli üzmə vasitələri - motorlu qayıq, çərpələng və ya digər bu tipli vasitələr gətirərək suya daxil olmaq yolverilməz sayılır. Uşaqlar heç bir halda nəzarətsiz buraxılmamalı, onlar daim valideyn və ya böyüklərin müşayiəti ilə suya daxil olmalıdırlar. Eyni zamanda, suda lüzumsuz və nəzarətsiz hərəkətlərə yol verməK, suya qayalıq, daş və ya dəmir konstruksiyalar üzərindən tullanmaq ciddi təhlükə yaradır və bu cür davranışlardan mütləq çəkinmək lazımdır"- deyə o əlavə edib.

*Xeyrənsə Piriyeva*



**Elçin Bayramlı**

# Milli medianın qlobal məsələləri

1875-ci ildə görkəmli maarifçi Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə əsası qoyulan və bu ay 150 illik yubileyi təntənəli qedy olunacaq Azərbaycan mətbuatı hazırda öz funksiyalarını necə yerinə yetirir? Bu yazımızda bu məsələləri qısaca analiz etməyə çalışacağıq.

Bu gün Azərbaycan mediası ziddiyyətli bir dövrünü yaşayır. Klassik media cəmiyyətdə və informasiya bazarında öz mövqelərini getdikcə daha çox itirir. Burada internetin inkişafı və sosial şəbəkələrin ciddi təsirini də qeyd etmək lazımdır. Sosial şəbəkə səhifələri və kanalları bu sahəyə heç bir aidiyyatları olmasa belə özlərini media kimi qələmə verirlər.

Məlum olduğu kimi, müasir jurnalistikanın əsas problemlərindən biri operativlik və obyektivlik arasında seçim etmə üsuludur. Əsl jurnalistlər hər hansı informasiya daxil olduqda onu tam dəqiqləşdirməmiş, tərəflərin (ehtiyac yarandıqda həm də ekspertlərin) fikrini öyrənməmiş və konkret fakt əldə etməmiş yazı yazmırlar və operativliyi obyektivliyə qurban verməkdən çəkinmirlər. Çünki düzgünlüyü aydınlaşdırılmamış operativ məlumatdansa, obyektivliyi təsdiq olunmuş gecikmiş informasiya daha üstündür.

Özlərinə saxta "sosial media" adı qoymuş qeyri-peşəkarlar isə, hətta şayiələri, dezinformasiyaları və sifarişli şantajları belə ucuz sensasiya xatirinə tələsik yayımlamaqla məşğuldurlar. Bu "jurnalistlər" müasir jurnalistika texnologiyaları haqda təlim və ya təcrübə keçməyiblər, ona görə də informasiyanın necə alınması, hansı mənbələrdən təsdiqlənməsi, faktların hansı yolla əldə edilməsi, tərəflərin mövqelərinin verilməsi, ekspert fikrinin alınması və s. bu kimi jurnalistika texnologiyalarından xəbərsizdirlər. Ona görə də, yazıların faktoloji yükü az olur, jurnalist neytrallığı kənara qoyulur, obyektivlik və peşəkarlıq isə hiss olunmur.

Əlbəttə, mediada peşəkar jurnalistlərin də sayı az deyil. Lakin onlar da çoxsaylı qeyri-peşəkar informasiya yayıcıları arasında itib batır. Belə halların nəticəsində jurnalistlər cəmiyyətin gözündən düşür. Oxucu hansının həqiqi media, hansının saxta media olduğunu çox vaxt aydınlaşdıra bilmir. Yəni qurunun oduna yaş da yanır.

Bütün dünyada media cəmiyyəti maarifləndirmək və obyektiv informasiya ilə təmin etməkdən ötrü fəaliyyət göstərir. Jurnalist professional peşədir və bu peşənin spesifik xüsusiyyətləri var. Jurnalist etik normaları, qanunvericiliyi, obyektivliyi, peşəkarlığı, sosial məsuliyyəti və s. humanist prinsipləri əldə rəhbər tutaraq maarifləndirici və məlumatlandırıcı fəaliyyət göstərməlidir.

Jurnalistika bir ictimai elm sahəsidir və bu sahənin də spesifik yaradıcılıq texnologiyaları var. Jurnalistin yayımladığı materialda şəxsi mövqeyi olmamalıdır. Bu gün mətbuatımızda çıxış edən kənar yazarların və bəzi jurnalistlərin isə, çox zaman konkret mövqeyi və subyektiv fikri olur. Bu konteksdən çıxış edib Azərbaycan medaisını nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, bizdə peşəkar jurnalistlər azlıq təşkil edir, subyektiv və məqsədli yazarlar isə olduqca çoxdur.

Nəticədə informasiya məkanımız çirklənir, ictimai rəy səhv yönləndirilir. Bu isə bəzən ciddi probləmlərə gətirib çıxarır. Bu problemlərin qarşısının alınması üçün son illərdə dövlət tərəfindən çox saylı işlər həyata keçirilib. Medianın İnkişafı Agentliyi yaradılıb, Media haqda Qanun qəbul olunub, medianın və jurnalistlərin vahid reyestri yaradılıb, jurnalistlər üçün MEDİA tərəfindən çoxsaylı peşəkar təlimlər təşkil olunub, media vasitələrinə qarantlar verilir və onların vacib mövzularda materiallar hazırlaması təmin olunur, qəzetlərə, saytlara yardımlar edilir, müxtəlif tədbirlər təşkil olunur və s.

Bütün bunlar bu sahədə müəyyən bir nizam yaratsa da problem tam aradan qalxmayıb. Bu səbəbdən hesab edirik ki, bu sahədə işlər daha geniş spektrdə davam etməlidir. Azərbaycan informasiya məkanı kənar təsirlərdən qorunmalı, mediamız gücləndirilməli, ictiami rəyə təsir edən materialların obyektivliyi təmin olunmalıdır. O cümlədən, dövlətçiliyimizin və milli dəyərlərimizin təbliği medianın üzərinə əsas vəzifə kimi qoyulmalıdır. Bunun üçün peşəkar medianın həm dövlətdən, həm cəmiyyətdən dəstəyə ehtiyacı var. Dövlət ciddi və peşəkar mediaya ona görə dəstək verməlidir ki, həm cəmiyyətin rəğbətini qazansın, həm də beynəlxalq məkana çıxış imkanları yaransın. Cəmiyyət isə peşəkar mediaya etibar etməli, siyasi, iqtisadi, mədəni, elmi mövzularda materialları oradan oxumalıdır.

Bundan sonra peşəkar media satışdan, abunədən, reklamdan normal gəlir əldə edəcək. Sağlam rəqabət mühiti yaranacaq. Nəticədə peşəkar, savadlı şəxslər işə cəlb ediləcək, medianın nüfuzu artacaq. Cəmiyyət görəndə ki, media obyektiv və peşəkardır, ona dəstək verəcək. Media da dövlət və cəmiyyət arasında öz funksiyasını daha layiqli yerinə yetirəcək. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanacaq. 20 gün sonra Azərbaycan mediası 150 yaşını qeyd edəcək. Şübhə yoxdur ki, bu yubiley münasibətilə mediamızın inkişafı üçün dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçiriləcək.

I YAZI

# GEYİMLƏRİMİZ: assimilyasiyanın zirvəsində

***Geyim parçadan və müxtəlif materiallardan hazırlanan, insanların bədənin müxtəlif hissələrini örtmək üçün istifadə etdikləri bədən örtüyü kimi ifadə olunur. Şüuraltında isə bu, yuxarıdakı təriflə bitmir. Geyim mədəniyyət, mənəviyyat, xarakter, zövq, həm də əxlaqdır. İstər kişi, istər qadın olsun, ilk baxışda geyim onun təqdimatıdır; səliqəsi, zövqü, əxlaqı haqqında məlumatdır. Təbii ki, zaman keçdikcə, geyimlər də dəyişir, müasirləşir. Lakin bu dəyişikliklər klassik geyimlər əsasında aparılmaqla daha gözəl olardı, nəinki həmin geyimlərə əsla istinad etmədən və mentalitetimizə uyğun olmayan tərzdə.***

Bu gün milli geyimləri ən çox assimilyasiyaya uğrayan xalqlar içərisində yerimiz heç də aşağı tərəf deyil, yuxarı başdır. Yüzilliklər boyu qoruyub saxladığımız dəyəri assimilyasiyanın qoynuna bu qədər asanlıqla necə ata bildik? Dəyişdirdik, özgələşdirdik, özümüzə bənzəməyən bir formaya saldıq. Qadın geyimləri əsasında bundan danışaq...











## Azərbaycan qadını Şərq qadınının ümumi obrazı kimi

Azərbaycanın və ümumilikdə şərq xalqları qadınlarının geyimi ilə yaratdığı bir obraz mövcuddur. Şərq qadını obrazı. Bütün dövrlərdə onun geyimində bir incəlik, zərafət, əxlaqi dəyərlər öz əksini tapıb. Elə bu cəhətlər də Şərq qadını obrazını formalaşdırıb. Baxmayaraq ki, geyimlər dəyişilib, lakin nə zaman Şərq qadınından söhbət açılırsa, göz önünə məhz gözəlliyini geyimi ilə daha da rövnəqləndirən obraz gəlir. O obraz ki, zaman-zaman onda bir özünəməxsusluq olub. Boy, qamət, saç düzümü, geyim və geyim aksesuarları, baş örtüyünün yaratdığı əsrarəngiz görünüş bu obrazın əsas çaları olub. İllər əsrləri tamamlayıb yeni yüzilliyə keçid etsə də, müasirlik yeni əsrlərə lövbərini açsa da, Şərq qadınının da geyimi müasirləşsə də, lakin bu geyim tərzinin görünüş etibarilə mədəniyyəti, mənəviyyatı, əxlaqı, zövqü, xarakteri özündə əks etdirən tərəfləri yerində qalıb. Bəs bu gün necə, Şərq qadını bu özünəməxsusluğu qoruyub saxlaya bilirmi?





## İctimai-iqtisadi formasiyanın geyimlərimizə təsiri

Söz yox ki, ictimai-iqtisadi formasiyalar xalqların həyatına, məişətinə təsirsiz ötmür. Azərbaycan xalqı da 70 illik bir formasiyanın gətirdiyi assimilyasiyaya məruz qaldı. Həyatımızın bütün sahələri dəyişdi. Çünki biz müstəqil bir xalq deyildik. SSRİ-nin tərkibinə qatılmışdıq və rus imperiyasının qanunlarına tabe idik. Həmin vaxta qədər zaman-zaman müasirləşsə də, qorunub saxlanılan geyimlərimiz yeni bir dövrə qədəm qoydu.

Burada artıq bazar da dəyişmişdi. Bazarda satılan parçalar, təklif olunan paltar çeşidləri istər-istəməz geyimimizə təsirsiz ötməyəcəkdi. Zamanla geyimlərimizə onlardan əlavə edəcək, bu "müasirləşmə" ilə də bir vaxt baxacaqdıq ki, özümüzdən ortada heç nə qalmayıb. Belə də oldu. İllərə nəzər salsaq, geyimlərimizdə əsaslı dəyişikliyin məhz SSRİ dövründən başlandığını görə bilərik. 70 il az deyil. İki qərinəlik bir vaxtdır və illərin hər biri də insan həyatına öz "naxışlarını" vurub gedir.

Azərbaycan qadını vaxtilə geyimi ilə ətrafa işıq saçıb. O geyim ki, artıq indi klassik geyim adlandırırıq və ona yalnız muzeylərdə, bayram tədbirlərində rast gələ bilirik. Sonrakı dövrlərdə təbii ki, geyimlərimiz də müasirləşdi. Qadınlar daha geniş ətəklərə deyil, bir qədər qatları az olanlara, bir qədər də qısa ətəklərə üstünlük verdilər. Bunun özündə də bir zəriflik vardı. Lakin qısaltmalar, daraltmalar o yerə gəlib çatdı ki, bir də baxdıq, ətəklərimiz lap əynimizə yapışır, uzunluğu isə dizimizin altında qalıb. Elə belə qalsaydı, buna şükür edərdik. Hazırda qısa ətəklər də (cəmi bir qarış olan) var ki, əsasən gənc qadınlar onlardan istifadə edirlər.

Beləliklə, 70 ilin sonunda artıq geyimlərimiz çox dəyişmişdi. Milli geyimlərə uyğunluq yalnız kəndlərdə, o da yaşlı qadınlar arasında var idi. Gənc qadınlar isə artıq daha "müasir" geyinirdilər.

## Gəlib çatdıq müasir dövrümüzə

70 illik həmin dövrlə bizi 30 ildən artıq zaman kəsiyi ayırır. Ötən dövrdə isə dəyişənlər olduqca çoxdur. Onlardan ən başlıcası isə yenə də qadınlarımızın geyimidir. O geyim ki, artıq assimilyasiyanın zirvəsinə çatıb. Klassik geyimlərdən əsər-əlamət qalmayıb. Hansı xalqa assimilyasiya olmuşuq, heç bundan özümüzün də xəbəri yoxdur. Çünki ola da bilməz. Ona görə ki, biz harada, kimdə nə görürüksə, onu tətbiq etməyə başlayırıq. Bir andaca bəlkə on xalqın geyimlərinə müraciət edirik. Beləliklə də ortaya bugünkü qarışıq, anlaşılmaz, məntiqə sığmaz və çox halda əxlaqi dəyərlərimizə zidd geyimlər çıxır.

Küçədə tez-tez açıq-saçıq geyinən qadınlarla rastlaşmaq olur. Hansı ki, bu, vaxtilə qəbahət hesab edilə bilərdi. Bəs necə oldu ki, öz sələflərimizin üzərində gələcəyimizi qura bilmədik. Yenə də söyləmək istəyirəm ki, dövr dəyişdikcə, geyim də dəyişir. Lakin bu, o demək deyil ki, insan öz xalqını, coğrafiyasını bir kənara qoyub, özündən dəfələrlə uzağa-Avropaya gedib çıxa və orada nə varsa, götürə və qayıdıb gəlib əyninə tətbiq edə.

Beləliklə, müasir qadın geyimləri, xüsusilə də gənc qadınların geyimləri dəhşətli görünüşdədir. Orta və yuxarı yaş qadınlar geyimlərində milliliyi bir qədər saxlasalar da, lakin gənclərdə bu, əsla hiss olunmur. Bir qarış ətəklərlə və bir qarış köynəklərlə həmin milliliyi illərdir ki, torpağın altına göndərmişik. Vaxtilə topuğumuza düşən ətəklər indi qalxıb dizimizdən bir qarış yuxarıya. Vaxtilə beldən bir qarış da aşağı düşən köynəklər indi beldən bir qarış yuxarı qalxıb göbəyimizi qoyub çöldə. İndi artıq "qol" amili də yoxa çıxmaqdadır. Çünki paltarın qolunu barmaqdan nazik bir qatma əvəz edir. Paltarların sinəsi də enib enə bildikcə, qadının mübhəm orqanını çöldə qoyub. Dar, bütün əndazəni ortada qoyan şalvar və şalvarabənzər digər geyimlər çox istifadə olunan geyimlər sırasındadır. Bütün bunlar isə təəssüf ki, il-ildən daha da genişlənir. Dünənədək təsadüfi şəkildə gördüyümüz bu geyimlərlə indi gənc qızlarımız universitetlərə, iş yerlərinə gedirlər. Bu hal isə həmin geyimlərdən istifadənin daha da genişlənməsinə şərait yaradır.

## Soyunmadan məşhurlaşmaq olmur?

Bir qədər də şou-biznesdəki qadınlarımız haqqında... Deyirlər ki, indi şou-biznes aləmində açıq-saçıq və dar geyinmədən məşhurlaşmaq mümkün deyil. Gənc müğənnilərimizdən birinin ən son konsertlərindən birindəki geyimi ilə qarşılaşdım. Uzun yırtmaclı paltarda mahnı ifa edən müğənninin fikri qalmışdı dizindən bir neçə qarış yuxarıda. Nəinki fikri, əli də qalmışdı orada. Elə hey paltarı aşağı dartırdı. Tamaşaçılar da yazırdı ki, ay bala, sən nə yaman əziyyət çəkirsən... Bunu elə geyin ki, yerində olsun, əlin qalmasın da orada.

Müğənninin bu halını görəndən sonra, "indi şou-biznes aləmində açıq-saçıq geyinmədən məşhurlaşmaq olmaz" söhbətini bir daha xatırladım. Yəqin həmin müğənni də elə o söhbətlərin təsiri altına düşübmüş ki, yeni aldığımı, tikdirdiyimi paltarını bu günə qoymuşdu.

Doğrudan, geyimin məşhurlaşmağa, tanınmağa nə dəxli var? Hələ tək müğənnilər yox, televiziya aparıcıları da bu cür geyimlərə müraciət edirlər. Nə üçün, nə səbəbə biz telekanalda bir verilişi aparanda yaxası açıq paltar geyinməli, veriliş boyu əlimizlə saçlarımızı həmin açıq yerə dartmalıyıq, nə üçün minlərlə insanın qarşısında səhnədə mahnı oxuyarkən əlimiz ətəyimizin yırtmacında qalmalıdır? Nə üçün bizim cinsin nümayəndələri geniş dekolite ilə ortalığa çıxmalıdırlar?

Mənimlə razılaşanlar, bilirəm ki, yüzlərlə, minlərlə olacaq. Məşhur müğənnilərimizdən Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Rübabə Muradova, Sara Qədimova, Zeynəb Xanlarova, Səkinə İsmayılova, Fidan və Xuraman Qasımova bacıları, Gülyaz və Gülyanaq Məmmədova bacıları, Mələkxanım Əyyubova, Nəzakət Teymurova, Aygün Bayramova, Şahnaz və Aybəniz Haşımova bacıları, Azərin, Zülfiyyə Xanbabayeva, aparıcılarımızdan Ofelya Sənani, Roza Tağıyeva, Şərqiyyə Hüseynova və adlarını çəkmədiyim, bunun üçün üzr istədiyim müğənni və aparıcı qadınlarımız var ki, onlar mentalitetimizə uyğun geyimləri ilə həmişə nümunə olublar.

## Son söz

Nəticə olaraq geyimlərimizlə bağlı vəziyyət çox dəhşətlidir. Ən pisi isə odur ki, bütün geyim növlərinin kiçik variantı da 2-3 yaşdan etibarən qızlarımız üçün istehsal edilir. Biz də həmin paltarları alıb onlara geyindirir və bununla da onların gələcək geyim tərzlərini formalaşdırırıq. Bu, hər bir ananı, qadını narahat edəcək məsələdir. Ona görə də hər bir ana, yaşlı qadın, nənə məsləhətçiyə, nəzarətçiyə çevrilməlidir. Elə vaxtilə göz yumduğumuz, vaxtında qarşısını almadığımız məsələlərdir bugünkü geyimlərimizdə təzahür edən. Çox yaxşı iş görürmüş kimi bunu körpə balalarımıza da öyrətmək əsla doğru deyil. Çünki bununla geyim anlayışının, mədəniyyətinin üzərindən xətt çəkib, onu assimilyasiyanın zirvəsinə yerləşdirmiş oluruq. Bu barədə düşünmək artıq gec olsa da, lakin ümid işığı hər zaman var...

***Mətanət Məmmədova***

# Gəncləşən xəstəlik: demans

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*



Hər nə qədər yeni xəstəliklərdən olduğu düşünülsə də, əslində, Demans (ağıl zəifləməsi) xəstəliyinin tarixi çox qədim dövrlərə gedib çıxır. Sadəcə, tibb elmi xəstəliyin diaqnostik meyarların müəyyənləşməsini 19-20-ci əsrlərdə edib. Qədim yunan və Roma dövrlərində Hipokrat və Qalen kimi həkimlər yaşlı insanların xəstəliklərini dəyərləndirəndə "ağılın zəifləməsi" halları barədə qeydlər aparıblar. Bu xəstəlik kimi yox, yaşla əlaqəli vəziyyət kimi qəbul edildiyi üçün çox əhəmiyyət verilməyib. Demans kimi bir xəstəliyin qəbul edilməsi ilk dəfə fransız psixiatr Jean-Etienne



Esquirol tərəfindən təsdiq edilib. Psixiatr demansı zehni zəiflik kimi təsvir edib və onu ruhi xəstəliklər siyahısına daxil etməyib.

1906-cı ildə alman psixiatr Alois Alzheimer 51 yaşlı Auquste Deter adlı qadında qeyri-adi yaddaş itkisi və davranış dəyişiklikləri müşahidə edir. Qadının ölümündən sonra beynində amiloid lövhələr və neyrofibrilyar dolaşıqlar aşkar edilir. Bu vəziyyət sonradan onu kəşf edən həkimin şərəfinə Alzheimer xəstəliyi adlandırıldı və tibbdə demansın ən yayılmış forması kimi tanındı.

20-ci əsrdə demans yaşlılıqla əlaqəli ümumi zehin zəifləməsi kimi deyil, patoloji bir vəziyyət kimi qəbul olunmağa başladı. 1980-1990-cı illərdə beyin görüntüləmə texnologiyalarının inkişafından sonra demansın səbəbləri və formaları daha dəqiq öyrənildi. Bu gün demans xəstəliyi qlobal səhiyyə problemi kimi tanınır. Hazırda dünyada 55 milyondan çox insan bu xəstəlikdən əziyyət çəkir. Tibb elminin bu sahədə apardığı araşdırmalar əsasən profilaktika, erkən diaqnoz və gecikdirici müalicə üsullarına yönəlib.

Demans beyin hüceyrələri zədələndikdə inkişaf edən zehni pozğunluqdur. Bu xəstəlik yaddaş, dil, qərar qəbul etmə və davranış kimi zehni funksiyaların itirilməsinə səbəb olur. Ən çox müşahidə edilən növləri Alzheimer, damar demansları, Lewy bədən demansları və frontotemporal demanslardır.

Demansın simptomlarına unutqanlıq, orientasiya pozuqluğu, ünsiyyət problemləri və şəxsiyyət dəyişiklikləri daxildir. Diaqnoz üçün nevroloji müayinə, testlər və diaqnostik tibbi cihaz üsullarından istifadə edilir. Müalicə simptomları aradan qaldırır, həyat tərzi dəyişiklikləri və psixososial dəstək həyat



keyfiyyətinin yaxşılaşdırılmasında effektiv olur. Erkən diaqnoz müalicə prosesi üçün olduqca vacibdir.

Demans gündəlik həyata müdaxilə edəcək qədər şiddətli idrak funksiyasının itirilməsidir. Bu qocalma prosesi iklə əlaqəli deyil və müxtəlif yaşlarda müşahidə edilə bilər. Demansın ən çox yayılmış növü Alzheimer xəstəliyidir, adətən qısamüddətli yaddaş itkisi ilə başlayır və dil və düşüncə kimi digər idrak funksiyalarını sıradan çıxarır. Bu xəstəlik adətən yaddaş itkisi, xüsusilə də son hadisələrin unudulması ilə özünü büruzə verir. Söz tapmaqda çətinlik və ya söhbət zamanı hər şeyi unutmaq kimi ünsiyyət problemləri də tez-tez rast gəlinir.

Əvvəllər dəfələrlə olduğu yerlərdə yolu itirmək, günün saatlarını qarışdırmaq, ən doğmalarını belə xatırlamamaq demansın əlamətləridir. Ani əhval dəyişikliyi, depressiya və ya narahatlıq kimi davranış və şəxsiyyət dəyişiklikləri də demansın əlamətləri ola bilər. Bu simptomlar demansın növündən və onun inkişaf dərəcəsindən asılı olaraq dəyişə bilər. Bununla belə, erkən diaqnoz xəstəliyin simptomların idarə edilməsində və müvafiq dəstəyin təmin edilməsində böyük əhəmiyyət kəsb edir.



Əgər ən son hadisələri unutmaq kimi yaddaş itkisi varsa, ünsiyyət zamanı söz tapmaqda çətinlik çəkirsinizsə, ani qərarlar qəbul edirsinizsə, tarixlər, günün saatları, tanıdığınız yerləri unutma kimi hallar yaşayırsınızsa, heç vaxt etməyəcəyiniz hərəkətlər edirsinizsə, ani əhval dəyişikliyi, depressiya və ya narahatlıq yaşayırsınızsa, gündəlik vərdişlərinizi yerinə yetirməkdə çətinlik çəkirsinizsə, əşyaların yerini xatırlaya bilmirsinizsə, sosial fəaliyyətlərə və ya hobbilərə marağınız itirsə, yuxusuzluq və ya yuxu pozğunluğu halları varsa, halüsinasiyalar görürsünüzsə demansdan şübhələnə bilərsiniz.



Demans yalnız qoca xəstəliyi deyil, kifayət qədər gənc və orta yaşlı insanlar da bu xəstəlikdən əziyyət çəkə bilər. Gənc yaş demensiyası adətən 65 yaşdan aşağı şəxslərdə də demans rastlanması mümkündür. Gənc yaşlarda demansın simptomları yaşlı insanlarda olduğu kimi olsa da, bəzi fərqlər var. Gənclərdə demans, adətən, yavaş-yavaş irəliləyir və ilk vaxtlarda fərqinə varmaq çətin ola bilər.

Gənc yaşda demans əlamətləri yaddaş problemləri ilə başlayır. Xüsusilə qısamüddətli yaddaşda pozğunluqlar, vacib görüşləri və ya söhbətləri unutmaq əsas əlamətlərdir. Konsentrasiya çətinlikləri olur, işə diqqət yetirməkdə çətinlik yaşayırlar. Ən yaxşı natiq olsa belə, bir insan gənc yaşda demansa yaxalansa danışdığı zaman söz tapmaqda çətinlik, cümlələri tamamlaya bilməmək kimi problemlərlə üzləşir. Planlaşdırma və qərar qəbul etməkdə çətinlik də demans əlamətlərindən biridir. Gündəlik işləri təşkil edə bilməmək, əvvəl asan olan işləri mürəkkəb olaraq qəbul etmək, əsassız qəzəblənmək, sosial həyatdan uzaqlaşmaq, depressiya, ani hərəkət və qərarlar da demansdan xəbər verir. Zamanla əvvəllər heç bir problemi olmayan bəzi əzaların öz funksiyasını yerinə yetirə bilməməsi halları müşahidə edilir.

Demansın yaranma səbəbi beyin hüceyrələrinin zədələnməsi və ya hüceyrələrin ölümü nəticəsində beyin bölgələrinin normal işləyə bilməməsidir. Demansa səbəb beyində amiloid plakaları və tau zülallarının yığılması, beyin hüceyrələrinin bir-biri ilə əlaqəni itirməsi və tədricən ölməsidir. Beyinə qan axını azalır, beyin toxuması zədələnir. Bəzi hallarda kəllə-beyin travması, qaraciyər və böyrək çatışmazlığı, beyin iltihabı, qidalanma pozğunluğu (B12 vitamini çatışmazlığı), alkoqolizm və ya narkotik maddə asılılığı, HİV/AIDS və ya digər infeksiyalar da demansa səbəb ola bilər.

Tibb elmi beyini demansdan qorumaq üçün ən yaxşı məşğuliyyətin kitab oxumaq olduğunu deyir. Çünki kitab oxumaq, eləcə də şahmat oynamaq, yeni dil öyrənmək, krosvord həll etmək kimi məşğuliyyətlər beyin neyronlarını stimullaşdırır və bu məşğulluq demansın başlanmasını gecikdirir. İdmanla məşğul olmaq, üzmək, velosiped sürmək beyinə qan axınını sürətləndirir deyə deman riski ortadan qalxır. Yüksək təzyiq, xolestroldan qorunmaq da bu xəstəlikdən sığortalaya bilər. Alkoqoldan, narkotikdən uzaq durmaq, yaxşı yatmaq demansdan müdafiə olunmaq deməkdir. Dövrün ən ciddi problemlərindən biri olan ünsiyyətsizlik, sosial həyatdan təcris olmaq demans üçün riskdir, ona görə də yaxşı sosial həyat yaşamaq, ünsiyyətdə olmaq lazımdır.

***Lalə Mehralı***

SƏS
4 iyul
2025-ci il

# “Gənclər örnək götürərək öyrənməyə meyillidirlər”



SOSİOLOQ ŞƏRH ETDİ



“Müasir dövr texnologiyanın sürətlə inkişaf etdiyi, informasiyanın saniyələrlə yayıldığı bir zamandır. Rəqəmsal alətlər, sosial şəbəkələr, qısa videolar və digər internet məzmunları gənclərin gündəlik həyatında önəmli yer tutur. Bu isə ənənəvi oxu vərdişlərinin, xüsusilə də kitab oxuma mədəniyyətinin tədricən arxa plana keçməsinə səbəb olur. Sosioloji baxımdan bu tendensiya yalnız fərdi deyil, həm də ictimai dəyərlərin dəyişməsi ilə bağlı ciddi bir məsələdir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Aydın Xan Əbilov deyib. Onun sözlərinə görə, gəncləri yenidən kitaba yönəltmək üçün əvvəlcə onu anlamaq lazımdır ki, bu nəsil sürətli, interaktiv və vizual informasiyaya vərdiş edib. Bu səbəbdən kitab oxuma vərdişinin yenidən formalaşdırılması üçün ənənəvi yanaşmalar kifayət etmir. Yeni metodlara, innovativ təşviq mexanizmlərinə ehtiyac var: ”İlk növbədə, kitabların təqdimat üsulları dəyişməlidir. Gənclərə kitabları sevdirmək üçün onları maraqlandıra biləcək, həyatlarında aktuallıq kəsb edən mövzularda əsərlər tövsiyə edilməlidir. Məsələn, psixologiya, motivasiya, şəxsi inkişaf, bədii ədəbiyyatda gənclərin özlərini tapa biləcəkləri qəhrəmanlarla dolu kitablar bu məqsədə uyğundur.

Bundan əlavə, rəqəmsal mühiti kitablarla birləşdirmək çox effektiv ola bilər. Məsələn, mobil tətbiqlər, e-kitablar, audio kitablar və ya interaktiv müzakirə platformaları vasitəsilə gənclərin oxuduqları kitablar haqqında düşüncələrini bölüşməsinə şərait yaradılmalıdır. Kitab oxumaq təkcə tənha bir fəaliyyət kimi deyil, həm də sosial bir proses kimi təqdim olunarsa, gənclər bu fəaliyyətə daha böyük maraq göstərəcəklər.

Sosioloji araşdırmalar göstərir ki, gənclər örnək götürərək öyrənməyə meyillidirlər. Ona görə də tanınmış şəxslərin - müəllimlərin, blogerlərin, sənət adamlarının kitab oxumağa dair tövsiyələri, paylaşdığı şəxsi təcrübələr və müzakirələr gənclər üzərində təsirli ola bilər. Sosial mediada #oxuçağırışları, ”aylıq kitab klubu” kimi kampaniyalar da gənclərin marağını cəlb edə bilər. Məktəblərdə və universitetlərdə kitabxanaların müasir və cəlbedici formada təşkil olunması da vacibdir. Təkcə kitab rəfləri ilə dolu otaqlar yox, eyni zamanda rahat, interaktiv və gənclərin özünü ifadə edə biləcəyi kitab zonaları yaradılmalıdır. Bu cür məkanlar kitab oxuma prosesini məcburiyyət kimi yox, zövq alınacaq bir fəaliyyət kimi təqdim edir.

Sonda qeyd etmək istəyirəm ki, kitab oxumaq təkcə bilik toplamaq deyil, həm də insanın dünyagörüşünü formalaşdıran, onun daxili zənginliyini artıran mühüm bir mədəni fəaliyyət növüdür. Rəqəmsal dövrün imkanlarından faydalanaraq gəncləri yenidən kitaba qaytarmaq mümkündür - sadəcə onları başa düşmək, doğru yanaşma və müasir metodlardan istifadə etmək lazımdır”.

*Ziya Hikmətoğlu*



## Binəqədidə qardaş qardaşı öldürüb...

Binəqədi rayonunda qətl hadisəsi törədilib. Hadisə iyulun 3-də səhər saatlarında Bakının Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsində baş verib. Orada yaşayan Amin Nuri 1996-cı il təvəllüdlü qardaşı Aslan Nurini öldürüb. Amin Nuri daha sonra könüllü şəkildə polisə təslim olub. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb edilib.


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Sulutəpədə iki evdən 10 min manatlıq qızıl oğurlanıb



Bakının Sulutəpə qəsəbəsində iki evdən ümumilikdə 10 min manat dəyərində qızıl-zinət əşyaları oğurlanıb. Daxili İşlər Nazirliyindən (DİN) SİA-ya verilən məlumata görə, əməli tədbirlərdə şübhəli bilinən 48 yaşlı Ramil Əsgərov da saxlanılaraq istintaqa təqdim edilib. Qeyd edilən faktlarla bağlı cinayət işləri başlanılıb, araşdırmalar aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**